AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

ELNARƏ  QARAGÖZOVA

# YUSİF SƏMƏDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI

Sənətkarın elmi pasportu – 48

Bakı 2024

*Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 5 dekabr 2023-cü il tarixli iclasının 6 saylı qərarı ilə çapa tövsiyə edilmişdir.*

**Elmi redaktor:**
*akademik* **İsa Əkbər oğlu Həbibbəyli**
*Əməkdar elm xadimi*
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru*

**Rəyçilər:**
*filologiya elmləri doktoru, dosent* **Vaqif Əziz oğlu Yusifli**
*Əməkdar mədəniyyət işçisi,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun "Ədəbi tənqid " şöbəsinin müdiri*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent* **Lalə Tofiq qızı Həsənova**
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi*

**Naşir:** Səbuhi Şahmursoy
**Texniki redaktor:** Aytən Paşayeva
**Üz qabığının dizayneri:** Tamerlan İsmayılzadə

© Qaragözova Elnarə Elxan qızı / Yusif Səmədoğlunun həyatı və yaradıcılığı. Sənətkarın elmi pasportu – 48 / Monoqrafiya / XAN Nəşriyyatı / Bakı / 2024 / 132 səh.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbi Tənqid" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın sayca beşinci olan kitabı Azərbaycan ədəbiyyatının özünəməxsus imzalarından biri, Səməd Vurğun ocağının genetik və ədəbi davamçılarından olan Yusif Səmədoğlunun həyat və yaradıcılığına həsr edilmişdir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Sənətkarın pasportu" seriyasından işıq üzü görən və "Yusif Səmədoğlunun həyatı", "Yusif Səmədoğlu yaradıcılığı və Azərbaycan nəsri", "Yusif Səmədoğlunun hekayə yaradıcılığı", "Yusif Səmədoğlunun romanlarında arxetipik məqamlar", "Yusif Səmədoğlunun yaradıcılığı ədəbi tənqiddə" bölmələrindən ibarət olan monoqrafiya ədibin həyat və yaradıcılığına yeni baxışı özündə ehtiva edir.

# MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................5

VƏKİLOVLAR NƏSLİ ..........................................................11

YUSİF SƏMƏDOĞLUNUN HƏYATI ..................................19

YUSİF SƏMƏDOĞLU YARADICILIĞI VƏ
AZƏRBAYCAN NƏSRİ ......................................................31

YUSİF SƏMƏDOĞLUNUN
HEKAYƏ YARADICILIĞI .....................................................47

YUSİF SƏMƏDOĞLUNUN ROMANLARINDA
ARXETİPİK MƏQAMLAR ...................................................63

YUSİF SƏMƏDOĞLUNUN YARADICILIĞI
ƏDƏBİ TƏNQİDDƏ .............................................................81

NƏTİCƏ ...................................................................................94

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI .......................96

YUSİF SƏMƏDOĞLU FOTO YADDAŞDA ......................105

# GİRİŞ

XX əsrin sonları XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında fərqli, özünəməxsus bir imza var: Yusif Səmədoğlu! Onun əsərləri yaşadığı dövrün hüdudlarından çox kənara çıxır, istər ideya, mövzu, istərsə də üslub baxımından özündən sonrakı dövr Azərbaycan nəsrinin – müstəqillik dövrü nəsrinin əsas xətlərinin ilkin elementlərini özündə daşıması ilə səciyyələnir. Onun nəsr əsərləri bu gün də aktualdır, yenidir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı müxtəlif taleyüklü ictimai-siyasi hadisələrin, fərqli ədəbi təmayüllərin təzahürünü özündə ehtiva edir. Bu yeni mərhələ ədəbiyyatımızda Yusif Səmədoğlunun nəsri ilə daha öncədən başlamış, onun yaradıcılığı ədəbi mühitdə yeni mövzu axtarışlarına rəvac vermişdir.

Akademik İ. Həbibbəylinin "Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular", akademik N. Cəfərovun "Səməd Vurğun... və Səmədoğlular", Əli Əmirlinin "Ölümə qənşər. Yusif

Səmədoğlu – 80", T. Abbaslının "Bir imza ki...", S. Ağabalayevanın "Yusifdən yazmaq çətindi!", Rəhilə Qeybullayevanın "Yusif Səmədoğlunun yaradıcılığında ölüm", Tahirə Məmmədin "İki yol ayrıcında yazılmış roman", İntiqam Qasımzadənin "Allahın nur payı", Nüşabə Babayeva-Vəkilovanın "Sonsuz ömrün yolçusu – Yusif Səmədoğlu", Vaqif Yusiflinin "Azərbaycan romanında yeni səhifə", "Böyük Azərbaycan yazıçısı. Yusif Səmədoğlu -85", "Doğumun və ölümün mübarək Yusif Səmədoğlu", "Unudulmayan Yusif Səmədoğlu", "Yusif Səmədoğlu – böyük nəsr ustası kimi", Sabir Rüstəmxanlının "Nadir və gözəl insan", Vaqif Səmədoğlunun "Deməyəcəyim sözlər…", A. Bağırlının "Ağrılı həqiqətlər romanı", Barat Vüsalın "Yusifsiz günlərin sonu", Fərid Hüseynin "Yusif Səmədoğlunun gülüşü", M. Həsənovun "Çingiz Aytmatov və Yusif Səmədoğlu yaradıcılığında repressiya: reallıqdan bədii təxəyyülə", Məti Osmanoğlunun "Biz gəldi gedərik, sən yaşa Yusif Səmədoğlu", Pərvinin "Yusif Səmədoğlu - ölümdən sonrakı həyat", Qorxmaz Quliyevin "Yanıram a dağlar...", Vilayət Quliyevin "Yuxunuz şirin olsun dirilər...", Ü. Rəhimovanın "Midas effekti və Yusif

Səmədoğlunun “Bayatı -Şiraz” hekayəsi”, Rüstəm Kamalın “Pəncərə – fantaziya”, “Yusif Səmədoğlu : Qeyb aləminin səsini eşidən adam”, Seyran Səxavətin “Qaç-haqaç: Allahın mənə verdiyi paydı Yusif Səmədoğlu”, Cavanşir Yusiflinin “Bayatı-Şiraz” və metafizik intuisiya”, “Qətl günü”nə daha bir baxış: “əyilən müstəvi” reallıq qiyafəsində”, “Yusif Səmədoğlunun “Qətl günü” romanında bədii interyer”, X. Zərrabqızının “Şərti-metaforik üslubun bədii imkanları (Y.Səmədoğlunun “Qətl günü” və S.Səxavətin “Nekroloq” romanları əsasında)” kimi məqalə, kitab, esse və xatirələrdə Yusif Səmədoğlunun yaradıcılığına toxunulmuş, onun ədəbiyyatımızda mövqeyi ilə bağlı dəyərli qənaətlər, elmi mülahizələr irəli sürülmüşdür.

Lakin Yusif Səmədoğlunun yaradıcılığı ilə bağlı bir çox araşdırmalar aparılsa da onun yaradıcılığı tam, kompleks şəkildə yeni tədqiqat metodları, yeni baxış bucağından tədqiqata cəlb edilməmişdir. Bu səbəbdən “Yusif Səmədoğlunun həyatı və yaradıcılığı” monoqrafiyasının qələmə alınması Azərbaycan ədəbiyyatşünaslığı üçün mühüm əhəmiyyətə malikdir.

Monoqrafiyanın əsas məqsədi Yusif Səmədoğlunun yaradıcılığını müasir Azərbaycan ədəbiyyatı kontekstində araşdıraraq onun irsinin özünəməxsus xüsusiyyətlərini üzə çıxarmaq, yazıçının yaşadığı dövrün ictimai-siyasi, ədəbi-mədəni mühitinin onun əsərlərinə təsirini müəyyənləşdirməkdir. Araşdırmamız Yusif Səmədoğlu yaradıcılığında Şərq mifoloji sistemi yanaşı ilə dünya mifoloji sisteminə xas elementlərin, müxtəlif dinlərə dair pritçaların, psixoloji məqamların varlığını sübut edir.

Qeyd etməliyik ki, Yusif Səmədoğlu irsində milli və ümumbəşəri dəyərlər, ədəbi-bədii arxetiplər, stereotiplər Azərbaycan oxucusuna, milli dəyərlərə uyğun şəkildə, orijinal üslubda işlənmişdir.

Yusif Səmədoğlunun yaradıcılığının kompleks şəkildə araşdırılması ədəbiyyatşünaslığımız üçün önəmli olan aşağıdakı məqamlara işıq salmağa imkan verir:

- Azərbaycan nəsrinin sosrealizmdən yeni dövrə keçidi və bu keçidin xüsusiyyətlərinin izlənməsi
- Dünya ədəbiyyatı ilə müqayisə kontekstində Azərbaycan romanının mövqeyi

- Azərbaycan ədəbiyyatında roman janrının inkişaf tendensiyaları, mərhələləri
- Müstəqillik dövrü bədii nəsrimizdə təzahür edən obraz, süjet və elementlərin mənşəyi
- Bədii əsərə genetik fərdi-psixoloji amillərin, zaman və məkanın təsir mexanizmləri

Monoqrafiya Azərbaycan ədəbiyyatının təkamül xüsusiyyətlərinin ədibin yaradıcılığı fonunda öyrənilməsi və öyrədilməsi üçün mühüm mənbə kimi nəzərdə tutulmuşdur. Fikrimizcə, "Yusif Səmədoğlunun həyatı və yaradıcılığı" monoqrafiyası həm Azərbaycan ədəbiyyatı, Azərbaycan nəsri  həm də Yusif Səmədoğlu ilə bağlı yeni tədqiqatlara, araşdırmalara rəvac verəcəkdir.

VƏKİLOVLAR NƏSLİ

Mustafa Vəkilovun mənsub olduğu Vəkilovlar nəslinin tarixindən bəhs edərkən Azərbaycanın ilk Xalq şairi Səməd Vurğunun böyük qardaşı, tarixçi professor Mehdixan Vəkilovun yetmişinci illərin ortalarında yazdığı "Mənim nəslim" məqaləsi və "Ömür dedikləri bir karvan yolu" adlı əsəri ən mötəbər qaynaqlardandır. Mehdixan Vəkilov həmin dövrün reallıqlarını nəzərə alaraq Azərbaycan Cümhuriyyəti dövründən bəhs edə bilməyib. O, "Mənim nəslim" adlı məqaləsində 15-ci yüzillikdə Türkiyə ərazisindən Azərbaycana köç edən Vəkilovlar nəslinin bir hissəsinin Naxçıvan (Şərur-Dərələyəz qəzası), bir hissəsinin isə İrəvan şəhərində məskunlaşmasını qeyd etməklə nəslin ölkə daxilindəki hərəkət istiqamətini və yayılma arealını göstərib. Tədqiqatçılar arasında Vəkilovlar nəslinin Naxçıvan ərazisindən Türkiyəyə, sonra isə Qazax-İrəvan-Naxçıvan ərazilərinə hərəkət etməsi versiyasını da irəli sürənlər var. Lakin Qazax rayonun Salahlı kəndi ərazisində 16-cı əsrə aid Ağa qəbiristanlığı kimi tanınan Vəkilovların böyük bir hissəsinin əbədiyyət qazandığı ərazinin mövcudluğu, həmçinin Naxçıvan və İrəvan ərazisində Vəkilovlar nəslinin izinə XVIII əsrin

sonları, XIX əsrin əvvəllərindən rast gəlinməsi nəslin məhz Qazax ərazisindən İrəvana və Naxçıvana köç etməsini təsdiqləyən amillərdəndir. Həmçinin M.Vəkilov qeyd edib ki, çar Rusiyası dönəmində əsilzadə nəsillərin itaətdən çıxmaması üçün onların nümayəndələrindən çarın sarayına apararaq orada yaşamağa məcbur edirdilər. Vəkilovlar nəslinin çar sarayına aparılan nümayəndəsi sonradan general rutbəsinə qədər yüksəlib. Söylənilən fikirlər tarixi mənbələrdə və o dövrün gerçək tarixinin ən mötəbər qaynaqlarından olan kameral təsvirlərdə də öz əksini tapıb. Vəkilovlar nəslinin Oğuz türklərinin Ustaclı tayfa birliyinə məxsus olması haqqında, demək olar ki, əksər tədqiqatçılarda fikir birliyi mövcuddur. Onu da qeyd edək ki, Vəkilovlar nəslinin Qazaxdan Naxçıvana köç etmiş nümayəndələri Şərur-Dərələyəz qəzasında mülk sahibləri olublar. Həmin nəslin görkəmli nümayəndələrindən Həsənalı Sultan Vəkilov Şərur-Dərələyəz qəzasının naibi olmaqla yanaşı, həmçinin qəzada ondan artıq kəndin sahibi olub. Şərur-Dərələyəz qəzasında yaşayan Hüseynalı, Dostalı və Həsənalı Vəkilovların daşıdığı Sultan rütbəsi isə həmin dövrdə süvari alay ko-

mandirlərinə verilən hərbi rütbədir. Bu isə Vəkilovların hərb peşəsinə olan bağlılığının göstəricilərindəndir. Onu da qeyd etmək lazımdır ki, II Dünya müharibəsində Vəkilovlar nəslindən 16 nəfər zabit iştirak edib. 1918-1920-ci illərdə Şərur-Dərələyəz qəzasında xalq qəhrəmanı Balo bəy Vəkilovun rəhbərlik etdiyi könüllü tabor ermənilərə qarşı şücaətlə vuruşub. Balo bəy Vəkilovun dəstəsində bu nəsilə mənsub olan Əhməd bəy Vəkilov (Amo), Kərbəlayi Əşrəf bəy Vəkilov, Qafar bəy Vəkilov, Abbas bəy Vəkilov, Teymur bəy Vəkilov, Paşa bəy Vəkilov, Hüseyn bəy Vəkilov və nəslin onlarla başqa nümayəndələri də xüsusi igidlik göstəriblər. Kiyev Dövlət Universitetinin hüquq fakültəsini qurtarmış Abbas bəy Vəkilovun rəhbərlik etdiyi Musavat firqəsinin Çivə dayaq dəstəsinin 8 üzvündən 7-nin güllələnməsi də o dövrün təlatümlü hadisələrinin səciyyəvi xarakterini göstərir. Sovet hakimiyyətinin ilk illərində Vəkilovlar nəsli ağır repressiyalara məruz qalmış, nəslin bir hissəsi İrana, bir hissəsi Türkiyəyə və dünyanın başqa yerlərinə mühacirət etməyə məcbur olub. Türkiyəyə mühacirət edən şəxslər sırasında Mustafa bəy Vəkilov, Mahmud bəy Vəkilov, Mobil bəy

Vəkilov, Xeyriyyə Vəkilova, Həsənalı Sultan Vəkilovun adını çəkə bilərik. Həsənalısultan bəy Vəkilovun qızı Leyla Vəkilli mühacirət tariximizdə dünya şöhrətli jurnalist kimi öz yerini qazanıb. Vəkilovlar nəslinin mühacirət etmiş nümayəndələri Vəkilli, Vəkiloğlu soyadları ilə bərabər Yalçuq, Topçu və başqa soyadlar da qəbul ediblər. Şübhəsiz ki, Vəkilovlar nəslinin tarixindən söz açarkən Cümhuriyyət dönəmində Parlamentdə təmsil olunmuş Mustafa bəy Vəkilov, İstiqlal Bəyannaməsinin mətninin müəllifi Rəhim bəy Vəkilov, Azərbaycanın ilk həkimlərindən olan Cümhuriyyət Parlamentinin üzvü Məhəmmədrza ağa Vəkilov və Gəncənin general-qubernatoru İbrahim ağa Vəkilovun fəaliyyətini qeyd etməyə bilmərik. Ağır repressiyalara baxmayaraq Sovetlər dönəmində Səməd Vurğun, Mehdixan Vəkilov, İlyas Vəkilov, Qəzənfər Vəkilov, Tofiq Vəkilov, Fəxri Vəkilov, Zərifə Vəkilova, Telman Vəkilov və b. şəxslərin simasında nəsil öz tarixi rolunu bir daha gerçəkləşdirib. Vəkilovlar nəslinin tariximizdə bir sıra ilklərə imza atdığının şahidi oluruq. Bu sırada ilk hüquq professoru Mustafa ağa Vəkilov, ilk uşaq evinin yaradıcısı Badisəba Vəkilova-Köçərli, ilk kənd qız məktəbi-

nin yaradıcısı Mədinə xanım Vəkilova-Qiyasbəyli, ilk qadın kimya elmlər doktoru Fatma xanım Vəkilovanı nümunə gətirə bilərik. Ötən əsrin səksəninci illərinin sonlarında Azərbaycanda geniş vüsət almış Milli Azadlıq hərəkatının öncül simaları arasında Yusif və Vaqif Səmədoğluların fəaliyyəti Vəkilovlar nəslinin milli azadlıq ideyalarına bağlılığının təcəsümüdür. Azərbaycanın müstəqliliyinə səs vermiş 43 milət vəkilinin içərisində Yusif Səmədoğlu Vəkilovun imzası, həmçinin Müstəqil Azərbaycan Respublikasının dövlət himninin bərpası ilə bağlı Xalq şairi Vaqif Səmədoğlu Vəkilovun da müstəsna rolu azadlıq ideyalarına sadiqliyin bariz nümunəsidir. Sosial mediada və bir çox mətbu orqanlarda və portallarda nazir Mustafa bəylə hüquqşünas Mustafa bəyin fotoşəkilləri mütəmadi olaraq dəyişik salınır. Müstəqil Azərbaycanın Respublikasının ilk vergi xidmətinin rəsi olmuş Şöhrət Vəkilovun da müasir vergi sisteminin formalaşmasında böyük rolu nəslin dövlətçiliyimizə töhfələrindən biridir. Əlimərdan bəy Topçubaşovun anası Sevər xanım Vəkilova və dünya şöhrətli müğənni Rəşid Behbudovun anası Firuzə Vəkilova, I və II Qarabağ müharibəsinin qəhrəma-

nı, tarixi Zəfər paradının komandanı, Azərbaycan Ordusunun Baş qərargah rəisi general-leytenant Kərim Vəliyev də Vəkilovlar nəslinin parlaq nümayəndələrindəndir.

**Mənbə:**

**Mustafa Vəkiloğlu. Məqalələr, Məktublar. I cild. (tərtibçi Dilqəm Əhməd, elmi redaktor Ədalət Tahirzadə, ideya müəllifi və məsləhətçi Səməd Vəkilov) Bakı, Çapar, 2023, səh. 39.**

# YUSİF SƏMƏDOĞLUNUN HƏYATI

Azərbaycan ədəbiyyatında, mədəniyyətində, ictimai-siyasi tarixində məşhur Vəkilovlar nəslinin imzası öz parlaqlığı və unikallığı ilə diqqəti cəlb edir. Bu nəslin Azərbaycan ədəbiyyatına ən möhtəşəm tövhəsi şübhəsiz ki, Xalq şairi Səməd Vurğun olmuşdur. Dövrünün ən seçilən, sayılan imzası olan Səməd Vurğun XX əsr Azərbaycan ədəbiyyatının zirvə şəxsiyyətlərindən biri olmaqla yanaşı ədəbiyyatımıza, mədəniyyətimizə iki böyük imzanı – Yusif Səmədoğlunu və Vaqif Səmədoğlunu bəxş edərək "Səmədoğlular" məfhumunun əsasını qoymuşdur. Böyük şair Səməd Vurğunun ocağından pöhrələnən Səmədoğlular ədəbiyyatımızda və mədəniyyətimizdə atalarının adını qorumaqla yanaşı tam fərqli üslub və yol yarada bilmək qüdrətinə malik olduqlarını sübut etdilər. Onların yaradıcılığı XX-XXI əsr milli ədəbiyyatımızın təlatümlərlə dolu dönəminin fərqli inikası ilə diqqəti cəlb edir.Şübhəsiz ki, Vaqif və Yusif Səmədoğlunun yaradıcılığı Səməd Vurğun geninin poetik qüvvəsi ilə formalaşmışdı. Vaqif Səmədoğlu poeziyanı yaradıcılığının prioritetinə çevirərək Səməd Vurğun zirvəsinə tay olacaq bir zirvə, yeni bir imza kimi var olmağı ba-

cardı. Yusif Səmədoğlunun yolu isə bir qədər fərqli idi. Onun yaradıcılıq xətti kimi seçdiyi nəsr Azərbaycan ədəbiyyatında poeziyadan daha az tarixə malik olması ilə fərqlənir, doğulduğu XX əsr isə Azərbaycan nəsrinin yüksəliş dövrü kimi səciyyələnirdi. Yusif Səmədoğlu ənənəvi klassik Azərbaycan nəsri, şüarçı sosialist realizmi nəsri və 60-cılar nəsri kəsişməsində unikal, tam yeni nəsr nümunələri meyadan qoymağa nail olan söz sənətkarı kimi nəinki Azərbaycan, habelə dünya ədəbiyyatında öz imzasını qoymağa nail oldu.

Ümummilli lider Heydər Əliyev Azərbaycan ədəbiyyatına, ədəbiyyat xadimlərinə daim xüsusi qayğı və həssaslıqla yanaşmışdır. Akademik İsa Həbibbəyli ulu öndərin ədəbiyyat sevgisi və ədəbiyyatımıza qayğısı haqqında yazır: *"Heydər Əliyevin dövlətçilik təfəkkürünün formalaşmasında, görkəmli dövlət xadiminin zəngin mənəviyyata və geniş dünyagörüşə malik nəhəng şəxsiyyət masştabını fəth etməsində ədəbiyyat və incəsənətin də böyük və xüsusi rolu olmuşdur. Heydər Əliyev dəfələrlə cəmiyyətin və şəxsiyyətin inkişafında bədii ədəbiyyatın mühüm əhəmiyyətini bəyan etmişdir. Ulu Öndər həmişə bu fikirdə olmuşdur ki: "Bədii söz insan-*

*ların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir". Həqiqətən, tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin, böyük siyasətçilərin və sərkərdələrin həyatında və fəaliyyətində mühüm yer tutmuş, böyük rol oynamışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş miqyası əhatə etmişdir. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindən biridir."* [1]

Yusif Səmədoğlunun yaradıcılığı, fəaliyyəti daim ulu öndərin diqqət mərkəzində olmuşdur. Ümummilli lider Heydər Əliyev Yusif Səmədoğlunun 60 illik yubleyi ilə bağlı çıxışında ədibin yaradıcılığına yüksək qiymət vermişdir: *"Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki o, böyük şair, böyük insan, böyük alim Səməd Vurğunun oğludur. Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük bir nemətdir, böyük bir xoşbəxtlikdir. Bəlkə elə bu bəs olardı. Ancaq bununla yanaşı, bu*

[1] İsa Həbibbəyli. Heydər Əliyevin böyük ədəbiyyat siyasəti // Ədəbiyyat qəzeti.- 2023.- 6 may.- s..9.

*kökün üstündə, bu ailə ab-havasının içində böyüyüb, ərsəyə gəlib atasının yolunu davam etdirmək və cəmiyyətdə özünəməxsus, məhz özünəməxsus yer tutmaq, – bu, böyük xoşbəxtlikdir, cəmiyyətimizin içində insan üçün, şübhəsiz ki, nemətdir..."*[2]

Yusif Səməd oğlu Vəkilov 1935-ci il dekabrın 25-də Bakı şəhərində Xalq şairi Səməd Vurğunun ailəsində anadan olmuşdur. 1953-cü ildə Moskvada Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olan, daha sonra həmin institutun IV kursundan ADU-nun Filologiya fakültəsinin beşinci kursuna dəyişilən Yusif Səmədoğlunun ömrünə 1957-1958-ci illər unudulmaz universitet illəri kimi yazıldı. Universiteti bitirdikdən sonra iş həyatına atılan Yusif Səmədoğlunun karyera siyahısı qabarıqlığı ilə diqqəti cəlb edir:

- "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri (1960-1965);
- C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü, baş redaktor (1965-1969);

[2] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 264

- “Azərbaycanfilm” kinostudiyasının direktor müavini (1969-1976);
- “Ulduz jurnalının baş redaktoru (1976- 1987);
- “Azərbaycan” jurnalının baş redaktoru (1987-ci ildən);
- Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətində nəsr üzrə katib (1991).

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet İttifaqının qoşun hissələri tərəfindən Bakıda törədilən kütləvi qırğın, faciə, azadlığın qanda boğulması Yusif Səmədoğlunu bir ziyalı kimi ayağa qaldırdı. Azadlıq meydanında xalqın yanında olan, azadlıq mübarizəsini ön sıralarında vətən oğullarına mənəvi dəstək olan Yuisf Səmədoğlu bu vəhşiliklə bağlı həqiqətləri “Azadlıq” radiosu vasitəsilə dünya ictimaiyyətinə çatdırmaqla bir ziyalı kimi tariximiz, vətənimiz qarşısında müstəsna xidmət göstərmiş oldu. Ümummilli lider Heydər Əliyev ədibin 60 illik yubileyində çıxışı zamanı Yusif Səmədoğlunun bu müsahibəsinin önəmini vurğulayaraq demişdir: *“O vaxt – yanvarın 20-də mən çox həyəcan içində idim. “Azadlıq” radiostansiyasının verilişlərini tutdum və o verilişlərdən Azərbay-*

*canda olan vəziyyəti özüm üçün müəyyən qədər aydınlaşdırdım. Xatirimdədir, Yusifin səsi ilə – yəni o, telefonla bəyanat vermişdi, – məlumat verdilər. O, Sovetlər İttifaqının böyük qoşun hissəsinin Bakıya girməsini "Azadlıq" radiostansiyasına telefonla nə qədər həyəcan hissi ilə bildirirdi. Qoşunların vəhşiliyindən, təcavüzkarlığından danışırdı. Mən bunları "Azadlıq" radiostansiyasından Yusifin səsi ilə özüm eşitdim... Güman edirəm ki, təkcə bu yox, – bu sadəcə mənim şəxsən hiss etdiyim bir hadisədir, haldır, – ancaq Azərbaycanın o ağır dövründə, 20 Yanvar faciəsi ərəfəsində və 20 Yanvar faciəsi zamanı o aylarda, o illərdə Yusif Azərbaycanın milli mənliyini qorumaq sahəsində çox fədakar şəxslərdən biri idi və onun siyasi fəaliyyəti, ictimai fəaliyyəti çox olubdur..."*[3]

Keçmiş Azərbaycan SSR-nın son Ali Sovetinin üzvü olan Yusif Səmədoğlu 7 mart 1991-ci ildə Ali Sovetdə SSRİ-nin saxlanması ilə bağlı referendum keçirilərkən SSRİ-nin ləğvinə və Azərbaycanın müstəqil olmasına səs verərək 43 nəfər "istiqlalçı deputat"dan biri kimi müstəqil Azərbaycan tarixinə daxil oldu. 1995-ci ilin noyabr ayında Azərbaycanın Milli Məcli-

[3] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, s. 304.

sinə üzv seçilən Yusif Səmədoğlu deputat kimi də ictimai-siyasi tariximizdə öz imzasını təsdiq etmiş oldu. Yusif Səmədoğlu millət vəkili kimi bir sıra xarici səfərlərdə nümayəndə heyətlərinin tərkibində ümummilli lider Heydər Əliyevi müşayiət etmişdir. Ulu öndərin 1996-cı ildə qonşu Gürcüstan Respublikasına səfəri zamanı da Yusif Səmədoğlu nümayəndə heyətində idi. Ulu öndər şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə çıxışı zamanı demişdir: *"Tarix boyu xalqlarımızın bir-biri ilə sıx əlaqələri haqqında burada saysız-hesabsız dəlillər, faktlar gətirmək olar. Bizim mütəfəkkir insanlar, ziyalılar, alimlər, yazıçılar, bəstəkarlar, rəssamlar, adi adamlar daim dostluq edib, ağır gündə bir-birinə dayaq olub, şən gündə isə bir-birinin məclisində əyləşiblər. Dostum Eduard Şevardnadze bizim böyük şairimiz Səməd Vurğunun sözlərini xatırladı. Mənim isə Səməd Vurğunla Georgi Leonidzenin dostluğu xatirimdədir. Bu, nə qədər də səmimi bir dostluq idi! Onlar bizim xalqlara nə qədər böyük töhfələr verib gediblər! Onların və eyni zamanda Qriqol Abaşidzenin və Rəsul Rzanın, İrakli Abaşidzenin və Səməd Vurğunun, müasirlərimizin bizə bəxş etdikləri irslər hamımız üçün həm qiymətlidir, həm də bu dostlu-*

*ğumuzu irəliyə aparmaq üçün böyük mənbədir. Bu gün bizim nümayəndə heyətinə mərhum Səməd Vurğunun oğlu Yusif Səmədoğlu da daxildir. O, bizim parlamentin üzvü və parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının sədridir."*[4]

1998-ci il avqustun 16-da xərçəng xəstəliyindən vəfat edən Yusif Səmədoğlu deputat səlahiyyətlərini tam başa çatdıra bilmədi. Fəxri Xiyabanda dəfn olunan böyük yazıçı Azərbaycan xalqına "XX əsrin ən yaxşı Azərbaycan romanı" seçilən (2014) "Qətl günü" romanını, hekayələrini, filmlərini, tamamlaya bilmədiyi "Deyilənlər gəldi başa..." romanını və iki qız övladını – Mehriban və Humay Vəkilovaları yadigar qoyaraq əbədiyyət yolçusuna çevrildi. Qardaşı – Xalq şairi Vaqif Səmədoğlu Yusif Səmədoğlunun ömrünün son günlərini xatırlayaraq yazır: " *"Qətl günü"ndə "Dərd gələndə batmanla gəlir", yazırdı Yusif. Dərd, ağrı-acılar onu da belə haqladı. Azərbaycanın prezidenti Heydər Əliyev onu dövlət hesabına Almaniyaya müalicəyə göndərdi. Yusifi ora Nəmidə xanım və qızı Mehribanın hə-*

[4] 30 tarixi səfər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəsmi və dövlət səfərləri (1993-2003).Bakı, "Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, 2013. səh. 88.

*yat yoldaşı Aqşin apardılar. Yusifgil Almaniyada olanda Aqşin mənə zəng etdi. Vəziyyəti danışdı: "Bir professora göstərdik, yoxladı, başqa professorun yanına göndərdi. O da başqasını deyib, sabah gedirik onun yanına". Mən dedim: "Aqşin, yaxşı". Ağladım. Ona bildirmədim. Başa düşdüm ki, bitdi… Həkimlər işıq ucu tapmayıblar. Yusifgil müayinələrdən sonra qayıdıb gəldi. Üç ay sonra – 1998-ci ilin avqustun 16-da vəfat etdi... Dözümlü insanıydı Yusif. Dözümünü sonadək qoruyub saxladı. Son iki gündə yatağından qalxa bilmirdi. Bütün günü ona qulluq eləyənlərdən elə hey üzr istəyirdi. Xəcalət çəkirdi kiməsə əziyyət verir, kimsə buna qulluq eləyir. Demirdi. Gözlərindən görürdüm."*[5]

Yusif Səmədoğlunun parlaq ədəbi, ictimai fəaliyyəti ədibin sağlığında yüksək qiymətləndirilmiş, yazıçı "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına (30 iyul 1979), "Şöhrət" ordeninə (19 dekabr 1995), "Azərbaycan Respublikasının xalq yazıçısı" fəxri adına (23 may 1998) layiq görülmüşdür. Sağlığında "220 saylı otaq" (1960), "Qalaktika" (1973), "Qətl günü" (1987) kitabları nəşr olunan yazıçı "Dost-

[5] Nüşabə Babayeva-Vəkilova. Sonsuz ömrün yolçuusu – Yusif Səmədoğlu.Bakı, Qanun, 2018

luq məşəli" (film, 1965), "Səməd Vurğun" (film, 1966), "Cəlil Məmmədquluzadə" (film, 1966), "Göllərin tacı" (film, 1966), "Monrealda Azərbaycan günü" (film, 1967), "Polşada Azərbaycan günləri" (film, 1970), "Yeddi oğul istərəm…" (film, 1970), "Foto "Fantaziya" "(film, 1970), "Azərbaycan SSR" (film, 1971), "Çiçək yağışı" (film, 1971), "Səmt küləyi" (film, 1973), "Axırıncı maqın sonu" (film, 1974), "Azərbaycan teatrının 100 illiyi" (film, 1974), "Qətl günü" (film, 1990) kimi filmlərdə də öz imzasını, "Yusif Səmədoğlu dəst-xəttini" qoyaraq Azərbaycan filmoqrafiyası tarixinə müstəsna xidmət göstərmişdir.

# YUSİF SƏMƏDOĞLU
## YARADICILIĞI VƏ AZƏRBAYCAN NƏSRİ

Qədim tarixə və ənənələrə malik Azərbaycan ədəbiyyatının tərkib hissəsi olan Azərbaycan milli nəsri özünəməxsus üslubu, yüksək ədəbi keyfiyyəti və zəngin məzmunu ilə diqqəti cəlb edir. Azərbaycan bədii nəsrinin tarixi çox qədim olmasa da bu nəsr müxtəlif cərəyanların təzahürünə görə və spesifik milli mentalitetin, dəyərlərin, arxetiplərin yüksək səviyyədə bədii inikası baxımından dünya ədəbiyyatının inkişafına, formalaşmasına mühüm təsir göstərmişdir. Öz çoxqatlılığı, rəngarəngliyi ilə diqqəti cəlb edən Azərbaycan milli nəsrinin dünya mədəniyyətinə və ədəbiyyatına verdiyi töhfə əvəzsizdir.

Öz köklərini şifahi şəkildə mif, əsatir, nağıl, əfsanə mətnlərindən başlayan milli nəsrimiz orta əsrlərdə Əfzələddin Xaqaninin məktubları ilə yazıda reallaşdı. Milli nəsrimizin formalaşma prosesinin M.F.Axundzadənin "Aldanmış kəvakibi" ilə başlanan yeni etapının inkişafında XIX əsr mühüm rol oynadı: *"Bədii nəsr sahəsində də XIX əsr ədəbi mənzərəni dəyişmişdir. Nəriman Nərimanovun "Bahadır və Sona" romanı Azərbaycan ədəbiyyatında roman janrında yazılmış ilk əsərlərdən olmuşdur. Bunun ardınca Mirzə Əbdürrəhim Talıbovun*

*(1834-1911) "Kitab yüklü eşşək" romanının meydana çıxması Azərbaycan bədii fikrində nəsrin mövqeyini və roman təfəkkürünü daha da möhkəmləndirmişdir. Bu əsrlərdə Azərbaycan ədəbiyyatında roman janrı özünün ilk və mükəmməl dayaqlarını yaratmışdır."*[6]

XX əsr Azərbaycan ədəbiyyatına yeni inkişaf meyilləri, yeni özünüifadə imkanları, milli mədəniyyəti və tarixi irsi dünyaya təqdim etmək üçün yeni üfüqlər gətirdi. Əsrin əvvəlində milli azadlıq hərəkatını və 23 aylıq suverenliyin ilkin bədii təzahürlərini əks etdirən milli ədəbiyyat çox keçmədən sosrealizmin çərçivələri daxilində inkişafa məhkum oldu. Sosrealizmin bütün mənfi təzahürlərinə baxmayaraq məhz bu dövrdən etibarən Azərbaycan ədəbiyyatı milli çərçivələri aşaraq beynəlxalq aləmdə də tanınmağa başladı. *"XX yüzillik xalqımız üçün yalnız siyasi cəhətdən deyil, ədəbi, mədəni, kulturoloji cəhətdən də yeni bir mərhələdir. Başa çatmış əsrə kənardan baxış ədəbiyyatın keçdiyi yolun ziddiyyətli olduğu qədər də forma, məzmun, ideya, obrazlar baxımından zəngin olduğunu göstərir."*[7]

[6] Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019, səh. 252.

[7] Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, 2ci cild (dərslik). Bakı, "Apostrov", 2010, səh. 8.

Azərbaycan nəsrinin də əsas yüksəliş dövrü məhz XX əsrə təsadüf edir. Nəinki Azərbaycan, ümumən dünya nəsri tarixində XX əsr unikal bir dövrdür. Məhz bu dövrdə nəsrdə aktiv şəkildə cəmiyyətdə baş verən dəyişikliklər əks olunur, forma və məzmun eksperimentləri aparılırdı. Bir əsrlik keşməkeşli yolun sonunda Azərbaycan nəsri milli özümlülüyünü qoruyub saxlamağa nail olan və müstəqillik dövrü ədəbiyyatına keçidi reallaşdırma potensiallı ədəbi irs kimi dünya ədəbiyyatı tarixində öz yerini tutdu.

XX əsr Azərbaycan nəsrinin ən maraqlı və polemik etapı ədəbiyyatşünaslığımıza "60-cılar fenomeni" kimi daxil olub. Qeyd etməliyik ki, "60-cılar" yalnız Azərbaycana deyil, ümumən sosialist ölkələrinə xas bir ədəbi fenomen idi. Bu kontekstdə Azərbaycan ədəbiyyatında diqqəti cəlb edən imzalardan biri də Yusif Səmədoğludur. Onun ilk hekayələri məhz "60-cılar" ədəbiyyatına xas xüsusiyyətləri özündə əks etdirir, "yeni nəsr"ə hazırlıq etapı kimi diqqəti cəlb edir. *"Təbii ki, yeni nəsr ədəbiyyatımıza ilk əvvəl 60-cı illər nasirlərinin yaradıcılıq ovqatı, ilk hekayələri ilə daxil olur və o da*

*doğrudur ki, burada xronoloji sıranı deyil, tipoloji məqamı vurğulamaq gərəkir"*[8]

Yusif Səmədoğlunun "Qətl günü" romanı isə sos-realizmin ömrünün son illərini yaşadığı dövrdə meydana çıxaraq polifonik bir əsər kimi ədəbiyyatımızda tam fərqli ab-hava gətirdi. "Altmışıncılar" ədəbiyyatının "Molla Nəsrəddin" və Cəlil Məmmədquluzadə estetikasına dayanan yaradıcılığından sonra məhz Yusif Səmədoğlunun bu romanı ədəbi mühitdə rezonans doğuraraq altmışıncılardan sonrakı, növbəti ədəbi dövrün başlanğıcının müjdəçisi kimi çıxış etdi. Ədəbiyyatşünas Məti Osmanoğlu "Qətl günü" romanının ilk çapı ilə bağlı yazır: *"Mən "Ulduz"da işə başlayanda, 1984-cü ildə Yusif Səmədoğlu "Qətl günü" romanını lap yenicə tamamlamışdı. Romanın çap olunma tarixini vurğulamağı son dərəcə əhəmiyyətli hesab edirəm: "Qətl günü" ilk dəfə "Azərbaycan" jurnalının 1984-cü il 4-cü nömrəsində nəşr olunub. Bunun prinsipial mənası və əhəmiyyəti var. Onda hələ sovet cəmiyyəti stalinizm idarəetmə sisteminin buxovlarından azad olmamışdı, öz yerində sayan ideoloji maşın köhnə meyarlarla işləyirdi.*

[8] Əlişanoğlu T. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı, "Elm", 2006, səh. 232.

*Qorbaçovun "perestroyka"sı başlayandan sonra isə köhnə ideoloji maşın tam sıradan çıxdı, sözə azadlıq verildi. "Perestroyka" Azərbaycanda 1986-cı ildən özünü göstərməyə başladı. 1984-cü ildə "Azərbaycan" jurnalının "Qətl günü" çap olunan nömrəsi isə ölkədə böyük ədəbiyyat hadisəsinə çevrilmişdi. Peşəkar dairələrdə roman böyük maraqla qarşılandı, Elmlər Akademiyasında, Dövlət Universitetində əsərin ciddi müzakirələri keçirildi. Mətbəə işçilərinin bildirdiyinə görə, jurnalın nüsxələri rəsmi tirajından qat-qat artıq buraxılmışdı. Kitab isə "perestroyka" vaxtı, 1987-ci ildə çap olundu."*[9]

Müxtəlif mifoloji, kultural ədəbi qatları özündə ehtiva etməsi, zaman anlayışının fərqli təqdimi baxımından "Qətl günü" həmin dövr Azərbaycan ədəbiyyatı kontekstində sözün əsl mənasında "qeyri-adi" roman kimi qəbul edildi və şöhrət qazandı. Yusif Səmədoğlunun bu romanı  bu gün də şərti olaraq  "ən yaxşı Azərbaycan romanı" , "ən mükəmməl nəsr nümunəsi" adlandırıla biləcək nominasiyalarda ilk sıralarda qərar tutur. Vaqif Yusifli Yusif Səmədoğlu nəsrinin bilicilərindən biri kimi  "Qətl günü" romanının yaradılış ge-

[9] Osmanoğlu M. Biz gəldi gedərik, sən yaşa Yusif Səmədoğlu // Ədəbiyyat qəzeti, 2015, 5 sentyabr, səh. 7. ; Ədəbiyyat qəzeti, 2015, 12 sentyabr, səh. 26.

nezisini izah edərkən yazır: “ *“İncə dərəsində yaz çağı”, “Bayatı-şiraz”, “Astana”... Bu üç hekayə “Qətl günü” romanından öncə yazılıb və əgər belə demək mümkünsə, onlar “Qətl günü»nün çox yaxşı – professional məşqləridir. Hətta mənə elə gəlir, bu hekayələrin hər birinin romanın yazılmasında müəyyən rolu olmuşdur. Onların hər biri müstəqil hekayədir, amma bu hekayələrin üçünün də bir-biri ilə bu və ya digər dərəcədə bağlılığı var. Yusif Səmədoğluya məxsus təhkiyə tərzi, təsvir ustalığı, nəsr ahəngi həm hekayələrdə, həm də romanda davam etdirilir. İdeya-məzmun planında yanaşıldıqda isə bu bağlılıq daha çox hiss olunur. İnsan faciələri: ləyaqətin alçaldılması, mənəviyyat böhranı, cəmiyyətin çıxılmazlığa yol alması, ölüm və qətllərin labüdlüyə çevrilməsi romanda da, hekayələrdə də diqqəti cəlb edir.”*[10]

“Qətl günü” psixonalitik obrazların, mifoloji anlayışların  cari, real həyat lövhələri ilə sintezidir. Romanda real həyat səhnələri zamanlararası keçidlər, obrazlar, əfsanələrlə uzaq və yaxın keçmişə bağlanır. Fərqli mifik, tarixi dövrlərin energiyasının qarışması, birləşməsi fonunda dəyişməz qalan bir əlaqələndirici obraz

[10] Vaqif Yusifli. “Qətl günü”ndən əvvəl.//Ədəbiyyat qəzeti 23 dekabr 2023, səh.

var – Külək. Məhz küləyin əsməsi, xəbərdarlıq etməsi süjetin həlledici məqamıdır: *"Külək bütün aləmin, daşın, torpağın, göylərin, ulduzların qəzəbini canına hopdurmuşdu, dünyanın ikiayaqlılarına hədə göndərirdi: gəlirəm! Gəlirəm ki, haqq-hesab çəkəm, gəlirəm ki, görüm bu ikiayaqlı, dəmir libaslı, nizəli-qalxanlı, aylarla su üzü görməyən, kirdən-pasdan sifətləri qaralıb mis rənginə çalan bu ikiayaqlı şeytanlar niyə belə qudurublar? Gəlirəm ki, bu ikiayaqlı yarasalar nə vaxt qandan doyacaqlar?.."*[11]

Romanda mifik obrazlardan, bədii personajlardan əlavə bir sıra ümumiləşdirilmiş, simvollaşdırılmış obrazlar da mövcuddur. Xəstə, Hökmdar, Şair məhz bu cür obrazlardır. Əsərin əsas obrazı, tarixin düyünləndiyi və düyünlərinin açıldığı personajı isə əlbəttə ki Xəstədir: *"Xəstəyə elə gəlirdi ki, o özü Sədi Əfəndinin üç dəftərlik gündəliyini oxuyandan sonra qəddarlaşmamışdı, sadəcə gözləri açılmışdı, çoxdan ürəyində gəzdirdiyi şübhəli sualların cavabını tapıb bir-iki gün ərzində həyat, bəzi hadisələrə baxışında bir qədər müdrik və ayıq olmuşdu"*[12].

[11] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. səh. 6

[12] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. səh.168

Beləliklə, Yusif Səmədoğlu "Qətl günü" romanı ilə XX əsrin sonlarında "yeni nəsr"in əsasını qoyanlardan oldu. Müstəqillik illərinə qədəm qoyan Azərbaycan ədəbiyyatının ilk nümunələrindən biri də məhz onun imzasını daşıyırdı. Həyat nasirə imkan versəydi "Qətl günü" siqlətli daha bir əsər Azərbaycan ədəbiyyatına daxil olacaqdı. Bu yazıçının xəstəlik səbəbindən qırılan ömrü kimi yarımçıq qalan "Deyilənlər gəldi başa" romanı idi. Yusif Səmədoğlunun bu romanının birinci hissəsi tamamlansa da ikinci hissədən cəmi bir neçə səhifə hazır idi. İkinci hissənin yarımçıq başlanğıcından yazıçının qəhrəmanını birinci hissədən tam fərqli bir zaman kontekstində təsvir edəcəyi bəlli olur.

80-ci illərdə Mövlud Süleymanlının "Köç" və Yusif Səmədoğlunun "Qətl günü" romanı magik realizmi cərəyan olaraq ədəbiyyatımıza gətirə bildi. Yusif Səmədoğlu ikinci romanı – "Deyilənlər gəldi başa" ilə Azərbaycan ədəbiyyatında magik realizmin mövqelərini möhkəmləndirmiş oldu. Magik realizm cərəyanı fərqli milli variasiyaları, hər ədəbiyyata məxsus spesifik xüsusiyyətlərə malik şaxələrinin qabarıqlığı ilə digər cərəyanlardan seçilir. Azərbaycan ədəbiyyatın-

da bu cərəyanın təsiri Y.Səmədoğlu və M.Süleymanlıdan sonra Elçinin, Anarın, Mübariz Cəfərlinin, Zahid Sarıtorpağın, Mübariz Örənin, Əflatun Amaşovun və başqalarının yaradıcılığında izlənilir. Apardığımız araşdırmalar əsasında məlum olur ki, Azərbaycan ədəbiyyatında magik realizm cərəyanının təzahürləri mənşə etibarilə qədim miflər, şamanlıq və atəşpərəstliklə bağlıdır. Bununla yanaşı, Azərbaycan ədəbiyyatında bəzi yazıçılar dünya mifoloji yaddaşına da müraciət edərək öz əsərlərində həmin mətnlərin reinterpretasiyasını verir, sitat texnikası ilə unikal bədii mətnlər yaradırlar. Müasir Azərbaycan ədəbiyyatında milli mifoloji mətnlərlə yanaşı, slavyan və yunan mifoloji mətnlərinə də istinad intensiv izlənilir.

Yusif Səmədoğlunun "Deyilənlər gəldi başa" əsəri məhz magik realizmin gözəl nümunələrindən biri kimi diqqəti cəlb edir. Əsərdə lal-kar Səməndərin mistik bir dünya ilə əlaqədar olması, qırx şəhidlə bağlı əfsanənin xatırlanması, Səməndərin yaşının bilinməməsi kimi elementlər diqqəti cəlb edir: *"...Və Səməndərin təlaşla, müdhiş ağrıyla gözlədiyi əhvalat baş verdi: Sarı hamam bütün işığı, qaranlığı, cah-cəlalı, ölülü-dirili dünyası və*

*hal arvadının qiyamət günündən xəbər verən havası ilə ilğım təkin əriyib qeyb oldu. Səməndər qalxıb, ətrafına göz gəzdirib başa düşdü ki, səhərin erkən sübh çağında o, bürcləri qar buludların dabanına dirənən, boz daşlarından səhər şehinin nəmi duyulan Narın qalanın ətəyindəki yam-yaşıl bir yerdə dayanıb. Təmiz hava, sübhün sazağı, göydə durub qırmızı-qırmızı şölələnən günəşin ilığı ciyərlərinə dolduğu kimi qulaqlarına da dolmuşdu. Səməndərin qulaqları açılmışdı: Səməndər günəşin səsini eşitdi...*

*O, üzü aşağı baxıb, enli bir yolun ortasında qara libaslı, qara atlı qırx süvari gördü. Və, nəhayət, indiyə kimi dünyanın min-bir məşəqqətinə dözmüş Səməndər, amma həmişə Tanrısının köməyinə ümid bağlayıb yaşamış və heç bir vaxt "dünya, səndən doydum" deməmiş bu adam – Uçqunlunun lal-kar Səməndəri dünyaya niyə gəldiyini və alnına nə yazıldığını xatırlayıb hər şeyi başa düşdü. Süvarilərdən soruşdu:*

*– Şəhidlərsinizmi, a bala?*

*– Şəhidlərik, atam!*

*Səməndər ağladı.*

*Süvarilərdən biri atını qabağa sürdü, atın burun pərələrindən püskürən buxarın içərisindən Səməndər süvarinin səsini eşitdi, məhz eşitdi, dodaqlarından oxumadı.*

*– Atam, biz özümüzü Qırxlar məzarlığından basdırdıq, cəsədimizi torpağa tapşırdıq. Ruhumuz geri qayıdır, hələ döyüşməliyik... Bizim məzarlarımızdan muağayat ol! Səni Tanrıya tapşırırıq!*

*– Tanrıya qurban olum!.. Məzarlarınızın nuru Tanrının nurudu...*

*Qırx süvari, qırx şəhid, gözlərindən od püskürən qara atların yönünü taleyin gedər-gəlməz yoluna saldılar: atların nalından qopan qığılcımlar yumaq-yumaq göyə qalxdı və bundan sonra Narın qalanın hər yerindən görünən Qırxlar məzarlığının əbədi gözətçisi olacaq Səməndərin başı üzərində şölələnən günəşin işığına qarışdı. Səməndərin beynindəki bütün kilidli qapılar açıldı, o, hər şeyi xatırladı. Və min-min kilidli qapının, Tanrının rəhmi hesabına birdən açılması ilə, dumanı güneydən quzeyə qədər burum-burum yayılmış üfüq xəttinin üzərində Səməndərin salamına çıxmış günəşin alatoran şüalarından süzülən, qubarını Səməndərin ürəyi başına*

*xəncər ağrısı kimi sancan qədim bir el havasının başı bəlalı dünyaya yayılması bir əcəl məqamına düşdü.*

> ***Haşa, sevdiciyim, haşa,***
> ***Deyilənlər gəldi başa... "***[13]

Bu sadalanan elementlərlə yanaşı yazıçı əsərə folklorumuzdan gələn magik bir obrazı – hal anasını da daxil etmişdir. Xalq inanclarına görə hal anası hamilə qadınların ciyərini çıxarıb çaya aparır, orda yuyub balaları ilə yeyir. "Əsatirlər, əfsanələr və rəvayətlər" kitabında hal haqqında aşağıdakı məlumat verilmişdir: *"Hal nənəsi su dibində, şır dibində olur. O, arvaddan əmələ gəlib. Əvvəl öz uşağını yeyib. Sonra yeddi gün yeddi uşaq yeyib. Sonra da düşüb zahıların üstünə. Gündüz arvad olur, gecə hal nənəsi… Zahı tək qalmamalıdır. Onun yanına şiş, qayçı, bıçaq qoyurlar ki, hal anası onu aparmasın. Zahı yatan otağın divarlarına cızıq çəkirlər. Hal anası başını acadan uzadıb deyər ki, ay arvad, ver uşağını əmizdirim. Əgər zahı uşağını əmizdirməyə versə, uşaq halın südündən əmsə, o saat öləcək, ya da dəli*

[13] Səmədoğlu Y. Deyilənlər gəldi başa (hekayələr və romanlar). Bakı, Avrasiya press 2012, səh. 422

*– cinli olacaq. Zahı uşağı verməyəndə hal anası onun ciyərini çıxarıb aparır, çayda suya çəkir, zahı ölür. Onda deyirlər ki, zahını hal apardı. Bu vaxt gərək tez gedib suyu qılınclayalar, göyə güllə atalar, evdəki suları boşaldalar ki, zahının ciyərini hal suya çəkə bilməsin. Belə eləsələr, zahı ayılar."*

Qeyd edək ki, Hal anası magik personaj kimi Mövlud Süleymanlının "Köç" əsərində də işlənilmişdir. Əsərdə Bəkil anasını hal aparmaması üçün çayın suyunu qılınclayır, hətta hal kişidən, kişi səsindən qorxduğu üçün oğlan olduğunu düşmənlərdən gizlətsələr də, Bikə adı altında qız övlad kimi yaşamağa məhkum olan bu gənc anasını qurtarmaq üçün çarəsiz qalıb qışqırır: *"– Bikə, tez ol, bıçaqla suyu doğra, ananı hal aparır. Bikə qurşağa qədər suya girdi, suyu eninə-uzununa doğramağa başladı... Qışqır, suyu doğraya-doğraya bağır, kişi səsi lazımdır". Əsərdə hal anasının zühuru ilə ətraf aləm də qəribə şəkildə dəyişməyə başlayır. O səsi ilə, nəfəsi ilə yalançı bahar, yalançı dirilik gətirir və təbiətin də nizamı pozulur." – Dünya, qurdun ulasın sənin! – Hal anasıydı, belə dedi, səsinin, nəfəsinin dibiylə güldü, hava açıldı. Əslində bu Hal anasının səsinə görə idi, hər*

*şey aldanıb dingildəməyə başlamışdı. Çiçəklər az qalırdı kökündən çıxsın, ona görə də vaxtsız böyüdü hamısı, qoxuları dörd yana ah kimi yayıldı, qoz ağacının çevizləri qaqqıldaşa-qaqqıldaşa yetişdi, almalar vaxtından-vədəsindən əvvəl yetişdi…"*

Mövlud Süleymanlının yaratdığı hal anası obrazı inanc və rəvayətlərdən tanıdığımız mifik obrazdır, belə demək mümkünsə "klassik hal anası"dır. Lakin Yusif Səmədoğlunun yaratdığı Hal anası artıq modifikasiyaya uğramış bir obrazdır. Bu əsərdə hal anası hamilə qadınların qorxduğu bəsit mifik bir canlıdan bütün canlıları haqq divanına çəkən bir ilaha çevrilir.

Azərbaycan nəsri xalqımızın milli kimliyini əks etdirməklə yanaşı, həm də tariximizin bədii güzgüsü rolunu oynayır. Milli nəsrimizi, ümumən ədəbiyyatımızı yaşatmaq və gələcəyə ötürmək üçün onu yüksək səviyyədə öyrənmək, tədqiq və təbliğ etmək qarşımızda duran əsas məqsəd, milli missiyalardan biridir: *"Klassik ədəbi irsimizin indi yenidən, ən müasir mənəvi, siyasi və elmi meyarlarla oxunması və təhlilinin nəzəri-metodoloji ölçülərini müəyyən etmək ədəbiyyatşünaslığımızın ən ümdə problemlərindəndir. Çünki milli mənəvi irsin ta-*

*rixi yeri və müasir mənası məlum standartlara, ölçülərə sığışmır."*[14]

Müxtəlif janrlarda təcəssüm tapan Azərbaycan nəsri dilinin gözəlliyi, ümumbəşəri ideyaların milli kontekstdə mükəmməl bədii həlli və təqdimi ilə diqqəti cəlb edir. Yusif Səmədoğlunun bədii nəsri də dövrünün reallıqlarını və zamanını qabaqlayan çağırışları əks etdirməklə yanaşı məhz milli mədəni irsin zənginliyindən qidalanır, məhz bununla öz unikallığını təmin və təsdiq edir. Ədəbi xəzinəmizin ən qiymətli incilərindən olan Yusif Səmədoğlu nəsri Azərbaycan ədəbiyyatının milli irsi qorumaq və ötürmək missiyasını müvəffəqiyyətlə yerinə yetirir.

[14] Alışanlı Ş. Sözün yaşamaq haqqı. Bakı, "Sabah", 2022, səh. 174.

# YUSİF SƏMƏDOĞLUNUN HEKAYƏ YARADICILIĞI

Yusif Səmədoğlunun yaradıcılığında hekayə janrı mühüm mövqeyə malikdir. Yazıçının "Xəzri", "Yaddan çıxmış sözlər", "Gözlər", "Qartal", "220 №-li otaq", "Güllər", "Saat işləyir", "Simurq quşu", "Qalaktika", "Soyuq daş", "Beşik", "46-cı ilin oyunları", "Foto-fantaziya", "Astana", "Bayatı-şiraz", "İncə dərəsində yaz çağı" hekayələri Azərbaycan nəsrinin qızıl fonduna daxil olmağa layiq bədii nümunələrdir. Bu hekayələr həm həcm, həm də mövzu baxımından rəngarəngliyi ilə seçilir. Yusif Səmədoğlu həm etüd təsiri bağışlayan "Xəzri" kimi hekayə-esseni, həm də ""Astana" kimi povest estetikasına yaxın əsəri eyni ustaqlıqla yarada bilən nasirdir.

Yusif Səmədoğlunun "Xəzri" adlı lakonik esse-hekayəsi "Cənubi Azərbaycanlı qardaşıma" epiqrafı ilə qələmə alınıb. Bakının simvollarından biri olan və yalnız bakılıların "Xəzri" adlandırdığı şimal küləyinin ismini simvol kimi özündə daşıyan hekayədəki şimallı-cənubli bütöv Azərbaycan nisgili həmin dövr Azərbaycan ədəbiyyatı üçün aktual və işlənmə tezliyi yüksək olan bir mövzu idi.Hekayədə Azərbaycan nəsrində simvola çevrilmiş nağıllarımızın əsas qəhrəmanlarından olan Məlik Məmməd azərbaycan xalqının arxetipik obrazı kimi təqdim edilir: *"Bax, mənim əzizim, mən*

*həmin o şahzadəyəm. İntəhası nə dəmir libasım, nə dəmir qılıncım, nə də dağlar və dəryalar arxasında məni gözləyən dünya gözəli sevgilim var. Bütün bunların əvəzində bir ürəyim var, bir də ki iki gözüm. Özüm də anadan olduğum ölkənin, Vətənimin qəlbində yaşayıram. Lakin dünyaya gəldiyim gündən o nəhəng quşun qanadlarındayam. Biz hey uçuruq, hey işıqlı dünya axtarırıq."*[15].

Yusif Səmədoğlu bu kiçik hekayəsi ilə doğma yurdunun başına gələn tarixi hadisələri, zaman-zaman parçalanmasını, dəfələrlə simurq kimi odlardan doğmasını çox məharətlə təsvir etməyə, bu fikri oxucuya çatdırmağa nail olur. 1959-cu ildə qələmə alınmış "Xəzri" hekayəsi həm də bir çağırış, bir üsyan, bir azadlıq nəğməsi idi. Həmin dövr Cənubi Azərbaycanla bağlı yazılan bir çox bədii əsərlərdə ilkin, üst qatda Güney Azərbaycanın İran zülmündən, müstəmləkəsindən azadlığı problem olaraq qoyulurdu. Həmin əsərlərin əsl, alt qatında isə Şimali Azərbaycanın azadlığına qovuşması, müstəqil olması arzusu bəslənirdi. Bu gizli məqamı, arzunu Yusif Səmədoğlu öz hekayəsində belə ifadə edir: "Biz hey uçuruq, hey işıqlı dünya axtarırıq, qardaşım.

[15] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 192.

*Ağzımı açıb Millət – deyə haray qoparıram, qışqırır.*
*Qa!*
*Ağzımı açıb Azərbaycan – deyə inildəyirəm, qışqırır.*
*Qu!*
*Ürəyimi parça-parça ona yedirtmişəm!*
*Göz yaşlarımı ovuc-ovuc ona içirtmişəm!"* [16]

Yetmiş il ərzində bir xalqın ürəyini yedirib göz yaşlarını içirdiyi arzusu – müstəqil olmaq, azadlığına qovuşmaq diləyi nəhayət əsrin sonunda reallaşdı. "Xəzri" hekayəsinin müəllifi Yusif Səmədoğlu bu müqəddəs azadlıq arzusunun realilərini yaşadı, məşum 20 yanvar gecəsi simurqun özünü atəşə atdığını da, atəşdən yenidən doğulduğunu da gördü, millətini azad ölkənin deputatı kimi xarici ölkələrdə də təmsil etdi.

Qeyd etmək yerinə düşər ki, Xalq yazıçısı Anar da "Ağ qoç qara qoç" əsərində bu nağıl personajını simvol kimi istifadə etmişdir. Anarın "Ağ qoç, qara qoç" (2003) povesti 2000-ci illər Azərbaycan nəsrində hadisə hesab edilə biləcək əsərlərdən biridir. Müəllifin utopik və antiutopik nağıllar alt başlığı ilə təqdim etdiyi povestin əsas qəhrəmanı Məlik Məmmədlidir.

[16] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 191

Əsər məhşur Azərbaycan nağılı "Məlik Məmməd"in stilizə olunmuş, simvollaşdırılmış variantı kimi təqdim edilir. İki nağıldan ibarət olan povestdə iki paralel, lakin bir-birinə zidd dünyalar təsvir edilir. Biri işıqlı dünyadır – azad, xoşbəxt, vətənpərvər insanların yaşadığı cənnətəbənzər bir məmləkət, digəri zülmət dünyadır – bölünmüş, parçalanmış, azadlığı, milli dəyərləri əllərindən alınmış insanların yaşadığı cəhənnəmə bənzər məkan. Bu iki dünyanın sərhəddində duran isə Məlik Məmmədli - Məlik Məmməddir. Üç zonaya bölünmüş Bakıya jurnalist kimi səfər edən Məlik Məmmədli əzizlərini zülmətdə axtarsa da onların hər birinin yalnız fiziki baxımdan deyil, həm də mənəvi cəhətdən bu üç zonanın birinin əsirinə çevrildiyinin şahidi olur. Əsərin əsas ideyası insanın seçimi və onu nəticələridir. Əslində hər birimiz Məlik Məmməd kimi dünyaya şahzadə kimi qayğısız gəlsək də həyatın keşməkeşləri ilə divlərlə savaşan kimi savaşıb quyulara düşürük. Həyatımız seçimdən keçir. Ağ qoç yoxsa qara qoç? Zülmət dünyadan işığa aparan ağ qoçun – xeyirin yanında olmaq asan deyil, çünki "gərək ağ qoçun belində möhkəm oturasan", öz yolundan dönməz olasan, axıra qədər inamdan, ümiddən, savaşdan əl çəkməyəsən.

Yusif Səmədoğlunun 1959-cu ildə qələmə aldığı "Yaddan çıxmış sözlər" hekayəsi də "Xəzri" etüd hekayəsində ifadə olunan ideyanın fərqli formada təkrar vurğulanmasıdır. "Xəzri" müəllifin dilindən emosinal bir çağrı kimi qələmə alınmışdı. "Yaddan çıxmış sözlər " hekayəsi isə artıq süjetə malik bir əsər kimi meydana çıxır:

*"Üçü də cavan,üçü də subay, üçü də yaraşıqlı.*

*Boylu-buxunlu,sağlam, həyatlarından və güzəranlarından razı üç cavan...*

*Hər bazar günü ayından-oyundan alıb bir yerə yığışırlar. Zarafatlaşırlar, uzun-uzadı deyib-gülürlər. Qəhqəhələrindən stolun üstündəki qab qacaq cingildəyir, döşəmə titrəyir...*

*Bu gün də belə oldu.*

*Birinci qədəhlər boşalandan sonra biri dedi:*

*– Həzərat, mənim bir təklifim var.*

*– Buyuracaqsan...*

*– Gəlin yaddan çıxardığımız və lap az-az işlətdiyimiz sözləri bir-bir xatirimizə salaq. Kim çox söz tapsa, o, oyunu udur. Oldu."*[17]

[17] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh.192

Müəllif öz vətənin bütövlüyü ilə bağlı nigilini, həsrətini üç gəncin sadə, cari həyat ssenarisinə daxil etməklə zəlzələ effekti yaradır. Sadə bir oyunun sonu deyilməsi qadağan olan bir həqiqətin ağrılı dərkindən doğan sükutla bitir:

*"Birdən həmin bu məzəli oyunu təklif edən cavan başını əlləri arasına aldı, gicgahlarını ovxaladı. Dostları onu çatılmış qaşlarını, doluxsunmuş gözlərini və körək bir ifadə almış sifətini gördülər... O dedi:*

*– İkicə söz deyəcəm, qardaşlar. Yalnız biz yox, çoxları yaddan çıxarıb.*

*– Buyur.*

*– Türkmənçay... 1828-ci il...*

*... Üçü də cavan, üçü də subay, üçü də yaraşıqlı.*

*Boylu-buxunlu, sağlam, həyatlarından və güzaranlarından razı bu üç cavan o gün daha gülmədi..."*[18]

Yusif Səmədoğlunun milli yaddaş, milli özünəməxsusluğa sayğı ilə bağlı digər bir hekayəsi "220 nömrəli otaq" hekayəsidir. "Xəzri" və "Yaddan çıxmış sözlər" hekayələrindəki xətt bu hekayədə daha gərgin, daha mükəmməl bir şəkildə davam etdirilir. Özü, kökü bir olan gənclərin əqidələri onları milliliyə

[18] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 193.

fərqli rakursdan baxmağa vadar edir. Maraqlıdır ki, hekayədə milliliyin simvolu kimi məhz tar çıxış edir:

*"Günlərin birində yenə İslamın yanına – 220 №-li otağa gəlmişdim. Qış idi. Otaqda istidən çox ürək sıxan bürkü vardı. Paltomu soyunan kimi İslamdan "tarı dınqıldatmasını" xahiş etdim. Əvvəlcə o boyun qaçırdı, dedi ki, çalmıram, kefim yoxdur. Mən bir də təkid etdim, zarafatyana ona "forslanma" dedim. O isə hirsli-hirsli üstümə çımxırdı:*

*– Sənin də bir tarın var, elə bilirsən ki, dünya sənindir. Tarın, kamançanın vaxtı keçdi. Sözün düzü, məni gülmək tutdu. İslamın boynunu qucaqlayıb soruşdum:*

*– Bu fikirlər sənin başına hardan gəlib, ay İslam? Necə yanı tarın, kamançanın vaxtı keçdi?*

*– Heç hardan gəlməyib! Elə öz-özümə fikirləşib tapmışam, başa düşdün? – deyə o, kobudcasına məni itələyib çarpayısına uzandı. Bu dəfə mən partladım. Deyəsən ona "əbləh" dedim. O isə məni "gic müsəlman" adlandırdı. Daha bir söz demədim, geyinib otaqdan çıxdım."*[19]

Bu məqam Mikayıl Müşfiqin məlum şeirinə mətnaltı istinad və əslində Ulutürkün illər sonra deyəcəyi "davam edir 37" misrasının ifadə etdiyi mənaya –

[19] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 204

mənəvi repressiyaya işarə idi. Yusif Səmədoğlu bunu sosializmin və sosrealizmin ən qüdrətli çağında deyirdi.

Mövzu,mündəricə baxımından Yusif Səmədoğlunun "220 nömrəli otaq", "Xəzri" və "Yaddan çıxmış sözlər" hekayələrinin həmahəngliyi bu üç əsəri triptix kimi təqdim etməyimizə əsas verir.

Səməd Vurğunun şairliyi qədər ovçuluğu da dillər əzbəri idi. Xalq arasında təbiəti sevən və ovçuluğunu çox zaman şairliyinə qurban verən sevimli şairin bu məşğuliyyəti ilə bağlı maraqlı, dadlı-duzlu sonsuz sayda əhvalatlar bu gün də dolaşmaqdadır. Şair ovçunun obrazı bir sıra bədii əsərlərdə də işlənmişdir. Xalq yazıçısı İlyas Əfəndiyevin "Şəhərdən gələn ovçu" hekayəsi bu mövzuda qələmə alınmış bədii əsərlərin ən gözəl nümunələrindən biridir. Əsərdə birbaşa ad çəkilməsə də təsvirlərdən və əsərin sonluğundakı işarədən bu obrazın məhz Səməd Vurğunun prototipi olması aşkardır: *"Bu hadisədən xeyli keçmişdi. Sərin bir yay axşamı ovçu Piri öz zağlı qoşalüləsini onun otuz ildən qalma köhnə tüfəngi ilə dəyişib xəbərsiz gedən o qəribə ovçunun əhvalatını klubun qabağına toplaşmış kəndlilərə yenicə nağıl edib qurtarmışdı ki, radioda bö-*

*yük Azərbaycan şairi Səməd Vurğunun "Ceyran" şeirini oxudular. Xeyli müddət kimsə dinmədi. Hərənin nəzəri bir nöqtəyə dikilmişdi.*

*– Bah! – deyə xəyala getmiş ovçu Piri birdən səsləndi. – Elə bil kişi hamısını öz gözü ilə görüb yazıb…"*[20]

Yusif Səmədoğlunun "Gözlər" hekayəsində Səməd Vurğunun məhz ovçu şair obrazı yaradılmışdır. Bu hekayə Səməd Vurğunun ədəbiyyatımızda yaradılmış obrazına tam fərqli rakursdan baxmağa imkan verir. Şairin obrazı bu dəfə onun geninin daşıyıcısı olan və onun ən mübhəm yaşantılarına vaqif olan bir şəxs tərəfindən yaradılır. Yusif Səmədoğlunun yaratdığı bu Səməd Vurğun obrazında hansı məqamın fakt, hansının təxəyyül olduğunu seçmək çox çətindir. Çünki, Yusif Səmədoğlu hamının tanıdığı Səməd Vurğundan daha başqa, daha mübhəm bir Səməd Vurğunu tanıyırdı.

Yusif Səmədoğlunun əfsanə adlandırdığı "Qartal" hekayəsində də ovçu obrazı var. Lakin bu ovçu obrazı Səməd Vurğun obrazı ilə səsləşmir. Hekayənin alt qatına nəzər saldıqda buradakı ovçunun qartalı – yəni Azərbaycanı ovlamağa, əldə etməyə, məhv etməyə

[20] Əfəndiyev İ. Qırçı və qırmızı çiçək (hekayələr). Bakı, Gənclik, 1981, səh. 143.

çalışan düşmən obrazının simvolu olduğu anlaşılır. Lakin Yusif Səmədoğlu qartala – vətənə təslimiyyəti yaraşdırmır, onun ölüsünü belə düşmənə təslim etmir, cəsədini belə yad əlində təsvir etmir: *"Birdən qartal səmtini dəyişib uzaqda görünən dik bir qayaya tərəf uçmağa başladı. Ora çatan tək ağır bir daş kimi qayanın zirvəsinə düşdü. Qanadları gərildi, son dəfə təbiətə baxıb gözlərini yumdu. Qartal öldü. Ovçu zirvəsi buludların içində görünməyən qayaya baxdı. Ora insan qalxa bilməzdi. Ora quş quşluğuyla uçsaydı qnad salardı. Ovçunun əlacsızlıqdan dizləri büküldü, üzüqoylu torpağın üstünə sərildi... Qartalın ölüsünə də ovçunun əli çatmadı... "*[21]

Yusif Səmədoğlunun "Güllər" hekayəsi də avtobioqrafik səciyyəlidir. Hekayədəki Tahirin yataqdan qalxa bilməyən, qələmini əlinə almağa həsrət qalmış,əlacsız xəstəliyə düçar şair atası müəllifin öz atasının – Səməd Vurğunun prototipidir. Yazıçı labüd ata itkisinin ağrısını, əlacsızlığın namümid əlacını bir gül dəstəsinin gözəlliyi, təravəti ilə paralel verir: *"İndi onun düşüncəsi, gizli mülahizələri yalnız bu kiçik gül dəstəsinə tabe olmuşdu. Bu gül-*

[21] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 201.

*lər Tahirə ürək dolusu nəfəs almağa imkan verdi. “Yaxşı yadımdadır, – deyə Tahir düşünürdü, – həmişə dədəm şeir gecələrindən evə qayıdanda özü ilə çoxlu gül dəstələri gətirərdi. Onda biz hamımız – anam, bacım, mən, qardaşım – hamımız sevinərdik. Mən də gərək onu sevindirəm. Can ata, bu saat, bu dəqiqə!..” ”* Əsərdəki gül dəstəsi ölüm arxetipi ilə həyat arxetipinin ortaq simvoluna, toxunma, toqquşma nöqtəsinə çevrlir.

“İncə dərəsində yaz çağı” hekayəsində kiçik bir kəndin həyatı fonunda zamanın mahiyyəti açılır. Vaqif Yusifli “Qətl günündən əvvəl” adlı məqaləsində bu hekayənin “Qətl günü” romanına hazırlıq materialı olduğunu qeyd edir. Həqiqətən də hekayədəki bir sıra personajlar sonradan adıçəkilən romanın qəhrəmanlarına çevrildilər. Lakin hekayənin öz kontekstində daha incə bir mesaj var: *“... Sayalı arvad bu dəfə də yolunu kəsə saldı, kəndin içindən keçib çəmənliyə çıxdı, haçansa Qara dağdan uçub tökülmüş sal daşların arasındakı cığırı tapdı – buradan şose yolunun qırağındakı feldşerxanaya lap azca qalırdı. Elə bu vaxt başı üzərində səhərki uğultunu eşitdi. Başını yuxarı qaldırıb seyrək buludlardan aşağıda uçan səhərki vertolyotu gördü. Əgər Qara dağ yerindən qopub Sayalı arvadın üstünə gəlsəydi*

*belə qorxmazdı: içi-içalatı, sümükləri birdən don tutub, onu qara qızdırmalılar kimi titrətməyə saldı. Əlini qoynuna salıb pulları çıxartdı. Vertolyotun yönəldiyi səmtə sarı qaçmağa başladı. Sayalı arvadın müsibətli səsi vertolyotun uğultusuna qarışdı:*

*– Əylə, başına dönüm, əylə, ay doxtur! İncəli Çərkəz ölüm ayağındadı. Başına dönüm, ay doxtur. O da hökumət adamıdı, kolxoz qurub, bandit tutub! Əylə!..”*[22]

Beləliklə, hekayənin bu məqamında bədii mətn həm “hökümət adamları”nın taleyi, həm də hökümətin “öz adamlarına” münasibəti fonunda məlum quruluşun mahiyyətini açıqlayır.

“Ölüm var ölümdü, ölüm də var zülümdü” epiqrafı ilə başlayan “Astana” (1978) hekayəsi Yusif Səmədoğlunun yaradıcılığında mühüm mövqeyə malikdir. Həm həcminə, həm də problematikasına görə bu hekayəni povest kimi də təqdim edirlər. 1993-cü ildə çap olunan “Çağdaş Azərbaycan povesti” toplusuna “Astana” hekayəsinin povest kimi daxil edilməsi də bu qənaətin nəticəsi idi. Birinci şəxsin dilindən qələmə alınan hekayə aşağıdakı şəkildə başlayır: *“Yəqin ki, bu dəqiqədən başlayaraq onu daha heç bir şey təəccübləndirməyəcək-*

[22] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 318

*di. Cəmi bir saat bundan qabaq günəş qübbənin kəlləçarxında dayanıb aləmi yandırıb yaxırdı. Bir saatmı? İki saatmı?.. Bəlkə lap on saat bundan qabaq: dünən gecə on ikinin yarısında, indi dayandığı yerdən çox-çox aşağıda, ay işığında gümüş kəmər kimi uzanıb Azərbaycanın cənubuna kedən şossedə taksidən enəndən sonra, balaca əl çamadanını nə üçün isə bərk-bərk sinəsinə sıxıb, gəldiyi yolla əks tərəfə üz tutmuş maşının arxa işıqlarına baxa-baxa fikirləşmişdi ki, daha onu bu dünyada heç bir şeylə təəccübləndirmək mümkün deyil, dünyanın minbir tilsimi bura cəmləşsə də, o, bu sərin axşamın yapışqan təmasından savayı heç bir şey hiss etməyə qadir olmayacaq."*[23]

Şüur selindən toxunan hekayədə düşünülmüş bir nizamsızlıq hökm sürür. Nəql prosesində retrospeksiyadan istifadə edən Yusif Səmədoğlu mətni flashbacklarla (yaddaş işartıları) da zənginləşdirərək qəhrəmanın düşdüyü situasiyanı və sonda gəldiyi qərara gətirən məqamları oxucuya çatdırmağa nail olur.

Yusif Səmədoğlunun maraqlı, qeyri-trivial hekayələrindən biri də "46-cı ilin oyunları" hekayəsidir. Hekayənin başlanğıcı oxucuya müharibəyə həsr edil-

[23] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh. 279

miş realistik hekayənin müjdəsini verir: *"Mühasirəyə düşmüşdülər. Çıxış yolu yox idi. Başı aşağı oturmuşdular. Hər üçü ölümlə üz-üzə dayanmışdı. Lakin heç biri – nə Siyavuş, nə Kərim, nə də Nazim ölmək istəyirdi. İki yol vardı: ya əsirlik, ya da ölüm. Düşmən xəbərdarlıq etmişdi ki, təslim olmasalar atom bombası atacaq. Onların isə atom bombası yox idi. Yadlarından çıxarıb evdə qoymuşdular. Siyavuşun, Kərimin və Nazimin anası Səkinə elə buradaca – səngərdə oturmuşdu."*[24]

Lakin sonrakı cümlə "O, qucağına sıxdığı balaca bir kuklaya – üç qardaşın bircə bacısı körpə Gülzara layla çalırdı" cümləsi oxucunu çaşdırır. İlk qənaət əsir düşən qadının ağlını itirməsi olur. Hekayənin sonrakı gedişatından bütün bu baş verənlərin uşaqların oynadıqları oyundan ibarət olduğu aydınlaşır. Müharibə travmasından sonra uşaqların yeganə oyunu da müharibə idi. "46-cı ilin oyunları" hekayəsi sadə uşaq oyunu kontekstində insan və dünya, sülh və müharibə kimi əbədi sualları təkrar gündəmə çıxarır. Hekayənin bu əbədi suallara cavabı isə çox ağrılı, ağır və bəşər var olduqca aktual olacaq, hayqırtı şəkilli bir nidadır.

[24] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005, səh.267.

Yazıçının “Saat işləyir”, “Simurq quşu”, “Qalaktika”, “Soyuq daş”, “Beşik”, “Foto-fantaziya”, “Bayatı-şiraz” hekayələrində sadə insanın ruhunun tərənnümünə həsr edilmiş məqamlar önə çəkilir. Atmışıncılar nəsrinin sosrealizmin qəfəsindən çıxmağa cəhd edərək dağıtmağa çalışdığı sxematik sovet insanı anlayışına Yusif Səmədoğlu özünəməxsus tərzdə yanaşır. Onun bu hekayələrinin qəhrəmanları canlı-qanlı, özünəməxsus, hətta bəzən deyilməsi qadağan olanı deyən, düşünülməsi belə “həbs qoxuyan” fikirləri cəsarətlə önə çıxaran obrazlardır. Məhz sadə olduqları qədər mürəkkəb olan bu obrazlar Yusif Səmədoğlu nəsrinin təkrarsızlığını təmin edir.

# YUSİF SƏMƏDOĞLUNUN ROMANLARINDA ARXETİPİK MƏQAMLAR

Son onilliklər arxetip fenomeni müntəzəm şəkildə araşdırmaçıların diqqətini özünə cəlb etməkdədir. Arxetipi tədqiq edən araşdırmaçılar ona ilk növbədə universal təsəvvürlərin, davranışların və düşüncə modelinin realizasiya forması kimi baxırlar. Bu səbəbdən müasir dövrdə arxetiplərin tədqiqi aktuallığı ilə seçilir. Müxtəlif elm və incəsənət növlərinin tədqiqi ilə məşğul olan alimlər araşdırdıqları sahələrdə bir sıra arxetipik elementlərin təzahür etdiyini üzə çıxarırlar. Qeyd etmək lazımdır ki, arxetiplər incəsənət və ədəbiyyatda daha aydın şəkildə təzahür etməkdədir. Çünki, bu sahələr insanın daxili aləmi, onun şüuraltısı ilə daha sıx vəhdətdədir.

Arxetiplər insanın şüurlu fəaliyyətinin hər bir sahəsində özünü biruzə verir. Bunu incəsənətin bir çox növlərində, eləcə də rəssamlıqda və kinoda müşahidə etmək mümkündür. Arxetiplər yalnız ədəbiyyatda və incəsənətdə deyil, hətta reklam çarxlarında belə istifadə olunur. Reklam industriyası insanın şüuraltısına nüfuz edərək onun arxetipik kölgə kimi gördüyü problemlərini yox edəcək vasitəni təqdim edir. Reklam süjetində Kölgə ilə mübarizə olduqca ra-

hat və xoşdur, məhz reklam edilən məhsul düşmənlə mübarizədə etibarlı silah ola bilər. Diqqət yetirsək görərik ki, reklamın son cümləsi [nidası] insan şüuraltısına anti-kölgə effekti yaradacaq tərzdə qurulur.

Arxetiplər müxtəlif xalqların mədəniyyətində, ədəbiyyatında fərqli şəkildə təzahür edir. Çünki, hər xalqın özünəməxsus tarixi, mifologiyası, mentaliteti ümumi bir obrazın fərqli variantının meydana çıxmasına şərait yaradır. Arxetiplər öz kökləri etibarı ilə mifoloji motivlərlə eyniyyət təşkil edir. Belə ki, həm mifoloji, həm də arxetip obraz bəşəriyyətin ilkin təssüratlarının inikasıdır. Arxetip anlayışı  insanın ilkin təsəvvürlər sistemi olan mifologiya ilə olduqca sıx bağlı olduğundan arxetiplər nəzəriyyəsini daha yaxşı izah etmək üçün mifologiyaya dair fikirlərə də nəzər salmaq lazımdır. Müqayisəli mifologiya ilə məşğul olan alimlər müxtəlif mədəniyyətlərə məxsus mifləri müqayisə edərək oxşar cəhətləri üzə çıxarmaqla protomifologiyanı bərpa etməyə çalışırlar. Bu sahədə çalışan alimlərin bir qismi miflərdəki oxşar əlamətlərin axtarışı ilə digərləri isə fərqliliklərin meydana çıxarılması ilə məşğul olur.Ziqmund Freydin tərəfdar-

larının fikrincə bir çox xalqların mifologiyasında Edip haqqında yunan mifinə uyğun süjetlər mövcuddur. Onlar bildirirlər ki, bu miflərdə Edip kompleksinin müxtəlif variantları əks olunmuşdur. Analoji olaraq, dünya xalqlarının əksəriyyətinin mifologiyasında Yunqun təsvir etdiyi arxetiplərə – obrazlara, mövzulara rast gəlmək mümkündür.

Beləliklə, ədəbi obrazların yaranması prosesi mif – arxetip – obraz xətti üzrə inkişaf edir. İlkin olaraq mifoloji anlayış kimi meydana çıxan obraz daha sonra arxetipik motivə çevrilir. Ədəbiyyat təhtəlşüurdan gələn simvolları – mifoloji və arxetipik motivləri bədii obraza çevirərək yenidən canlandırır, təhtəlşüurdan şüura doğru gedən inkişaf prosesini əyanilәşdirir.

Ədəbiyyatda mifik-arxetipik süjetlərdən istifadə antik dövrdən başlanır. Antik yunan şairləri və dramaturqlarının əsərlərinin əsasını bu cür süjetlər təşkil edir. Homerin "İliada" və "Odisseya", Hesiodun "Teoqoniya", Esxilin "Zəncirlənmiş Prometey", "Oresteya", Sofoklun "Çar Edip", " Edip Kolonda", "Antiqona", Evripidin "Alkesta", " İfigeniya Avliddə", "Andromaxa" əsərləri buna ən gözəl nümunədir. Daha son-

ralar renessans dövründə yenidən arxetipik süjetlərə maraq yaranır.

Azərbaycan ədəbiyyatında arxetipik süjetlərdən istifadənin tarixinə nəzər saldıqda aydın olur ki, bu ənənə qədim dövrlərdən mövcud olmuşdur. Belə ki, Nizami Gəncəvi "Xəmsə" sində müxtəlif mif, nağıl və rəvayətlərin motivlərindən istifadə etmişdir. "Yeddi gözəl" poemasında gözəllərin danışdıqları nağıllar, eləcə də poemanın personajları, "İsgəndərnamə" poemasında Makedoniyalı İsgəndər və Xızır haqqında rəvayətlərdən istifadə edilməsi buna misal ola bilər. Şah İsmayıl Xətainin "Dəhnamə" poemasında, Füzulinin "Leyli və Məcnun" əsərində də arxetipik süjetlərdən və obrazlardan istifadə edilmişdir. Sufizm və hürufizm fəlsəfəsinə əsaslanan klassik Azərbaycan şairləri öz əsərlərində "Qurani- Kərim" də olan dini arxetiplərdən faydalanırdılar. XX əsr Azərbaycan ədəbiyyatında H.Cavidin "İblis", M.Süleymanlının "Köç", "Yel Əhmədin bəyliyi", "Şeytan", Y.Səmədoğlunun "Qətl günü", XXI əsrdə isə K.Abdullanın "Sehrbazlar dərəsi", "Yarımçıq əlyazma", A.Talıbzadənin "Kəpənək modeli-102", İ.Fəhminin "Qarğa yuvası", Ü.Heydərovanın

"Noutbuk", G. Anarqızının "Altıncı", Z. Quluzadənin "Kəpənəkdoğan" və b. əsərlərdə bu ənənə davam etdirilmişdir.

**Əlyazma (kitab) arxetipi.** Yusif Səmədoğlunun "Qətl günü" əsəri Azərbaycan ədəbiyyatında öz üslubu, məzmunu, mifik-fəlsəfi siqləti ilə seçilən əsərlərdəndir. Əsər haqqında ilk resenziyanın müəllifi Anarın yazdığı kimi" "Qətl günü" müasir ədəbiyyatımızın həqiqət günüdür". "Qətl günü" əsərini başdan-başa simvolik, metaforik və mifik anlayışlardan hörülmüş bir çələngə bənzətsək yəqin ki, səhv etmərik. Əsərdə mifik anlayışlar, elementlər, süjetlər, obrazlar məharətlə bir-biri ilə əlaqələndirilir. *"Burada folkor ənənəsi özünü nəqletmənin intonasiyasında, atalar sözləri və məsəllərdən  müntəzəm istifadədə göstərir. Romanın folklor nəfəsini təbiətin böyük qüvvələrinin [dondurucu soyuq, dəhşətli əsən külək, sönən ulduzlar] tamamlayır. Burada əsas simvolik mənanı azərbaycanlıların qədim inanclarında insan vicdanının mücəssəməsi olan külək obrazı təcəssüm etdirir."*[25]

[25] Мусаева Б. Сравнительный аспект изучения фольклорных мотивов в современной тюркоязычной литературе [на материле прозы Чингиза Айтматова и Юсифа Самедоглу].//Müqayisəli ədəbiyyat. I Beynəlxalq elmi konfrans. 29-31 oktyabr, Bakı, "Kitab aləmi" 2004. – 92, səh. 109.

Ədəbiyyatda kitab arxetipi çoxşaxəli və çoxmündəricəlidir. Bir sıra əsərlərdə kitab sadəcə simvol rolunu oynayırsa, bəzi ədəbi mətnlərdə əsas obraz, intriqanın mərkəzi statusunu qazanır. Dünyada şöhrət qazanmış bir sıra romanlarda məhz kitabın ilkin, daha mübhəm variantı olan manuskriptlər əsas obraz kimi seçilir, süjet sirli əlyazma ətrafında qurulur. Beləliklə, əlyazma kitab arxetipinin ilkin variantı kimi arxetiplər iearxiyasında məxsusi mövqeyə malikdir. "Əlyazma"lar çox zaman elmi ədəbiyyatda manuskript termini ilə ifadə olunur. *"Manuskript [latınca "əlyazma" deməkdir] kitabın ilk forması olmuşdur. Romalılarda iki növ "əlyazma" mövcud olmuşdur: lülə halında bükülmüş-volnmina və dördbucaqlı şəklində hər iki üzü yazılan – codies. Herkulanumada aşkar olunan freskalarda əllərində lülə şəklində bükülmüş "əlyazma" oxuyan insanlar təsvir olunmuşdur.*[26] Qədim dövrlərdən "əlyazma"lar qiymətli sərvət hesab olunurdu. "Əlyazma"nı müvəqqəti oxumaq üçün götürən şəxs onun əvəzində dəyərli bir əşyanı girov qoymalı idi. Hətta sələm-

[26] Энциклопедический словарь Ф.А. Брокгауза и И.А. Ефрона.http://dic.academic.ru/dic.nsf/brokgauz_efron/127489 - 146

çilər də "əlyazma"ları həvəslə girov kimi qəbul edirdilər.

Rus ədəbiyyatında M. Bulqakovun yaratdığı və müəyyən məqamlarda Hötenin "Faust"u ilə səsləşən "Master və Marqarita" romanında da əsas obrazlardan biri "əlyazma"dır. Romanın qəhrəmanı Master dövrün təzyiqləri və şəxsi problemləri fonunda yazdığı romanın "əlyazma"sını yandırır. Lakin Voland [İblis] yandırdığını sandığı "əlyazma"nı ona qaytarır: "İcazə verin baxım" – Voland əlini yuxarı qaldırdı. "Təəssüf ki, mən bunu edə bilmirəm" dedi Master, "çünki onu sobada yandırdım". "Bağışlayın, mən buna inanmıram" deyə Voland cavab verdi, "bu ola bilməz". Əlyazmalar yanmaz. "O, Begemota tərəf dönüb dedi: "Gəl, Begemot, romanı mənə ver". Pişik dərhal oturduğu yerdən qalxdı və hamı onun qalın əlyazma yığını üzərində oturduğunu gördü. Pişik üstdəki nüsxəni təzimlə Volanda verdi". Romanın bu hissəsi müəyyən qədər avtobioqrafik xarakter daşıyır. Belə ki, Bulqakov da "Master və Marqarita" romanının ilkin "əlyazma" nüsxəsini Sovet hakimiyyətinin mənfi münasibəti səbəbiylə yandırmışdı.

XX əsr Azərbaycan ədəbiyyatında əlyazma arxetipi Y.Səmədoğlunun "Qətl günü" əsərində çox gözəl işlənmişdir. Y.Səmədoğlunun "Qətl günü" əsərində təsvir olunan 3 zaman kəsiyindən biri məhz əlyazmadakı hadisələri əks etdirir. Öz əsərində Şah Qacar dövrünü, Vaqiflə bağlı hadisələri əks etdirən əsər müəllifi Sədi Əfəndi 30-cu illərin repressiyasına məruz qalır. Repressiya qurbanı olacağını öncədən hiss edən müəllif əsəri qonşularından birinə verir. Lakin özündən və həmin qonşudan başqa heç kəs əlyazmanın taleyindən xəbərdar olmur. Beləliklə, varlığı haqqında ehtimallar və əfsanələr dolaşan əsər itir. İllər sonra Sədi Əfəndinin ruhi xəstə olan qızı Səlimə xanım "əlyazma"nı axtarıb tapır və dairə qapanır:

*"Bu dəfə xəstə öz səsini eşitdi:*

*– Adı nədi?*

*– Kimin?*

*– Əsərin... – Telefondan gələn uğultulu küləyin həmlələri otağın pəncərələrini dolu kimi döyəcləyirdi. – Əsərin adı nədi?*

*– Qətl günü...*

*Arxadakı qapı da, qabaqdakı qapı da kip bağlı idi və yalnız telefon dəstəyindən gələn boğanaqlı küləyin səsindən nə qulaq qulağı eşidirdi, nə də göz gözü görürdü. Sonra, Baba Kahanın oyumundan qopmuş qəfil külək, topa-topa qara buludları, topa-topa ağ buludları boğanaqlı axarına qatıb, adı küləklər şəhəri olan bir şəhərin göy üzünə yığdı, ayı və ulduzları görünməz elədi, son gücünü toplayıb, bütün kilidli qapıları taybatay açdı: at kişnərtisi, sərbaz hayqırtısı, dəmir və qan iyi beynin dərin şırımlarına doldu. Və bir də, haçansa gözləri açıq qalmış bir şairin, hardasa gün işığına çıxmış əlyazmasından yarımçıq bir misrasın, qara buludlar üzərində parıldaşan ulduzların gümüşü işığına qovuşdurdu: əcəldən möhlət istədim, möhlətin əsirgədi..."* [27]

Yusif Səmədoğlunun fərqli mədəni qatların sintezindən ibarət olan bu romanında aşkar sezilən bir aspekt də var. Bu ümumən 60-cılar nəsrinə də xas olan Mirzə Cəlil üslubuna istinad effektli mətnyaratma təcrübəsidir. Həmin təcrübə Yusif Səmədoğlunun "Qətl günü" əsərinin sonluğunda da bariz şəkildə əks olunur: "...*Daha mən heç kəsin yuxusuna girmirəm. Son*

[27] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. Səh. 180

*dəfə arvadın yuxusuna girdim, o da ağladı, mən də, o məni qucaqladı, mən onu, o mənim göz yaşlarımdan içdi, mən onun... Amma səhər ayılıb, arvad, Səlimə xanıma zəng eləyib, telefonda ağlaya-ağlaya yuxusunu ona danışdı. Vədələşib, günorta görüşüb, Təzə Pirə getdilər, orda mollaya beş manat verib, Səlimə xanım dedi ki, bir dua oxuyub, bu cavan gəlini, yuxusuna girən ölünün xofundan azad eləsin...*

*Dəxi mən, a kişilər, bundan sonra, bir kimsənin röyasına girmərəm! Amma, ey mənim səbrli oxucum, işdir, şayəd, gecə röyada, sifəti xəzan yarpağı kimi sapsarı saralmış, gözləri çuxura düşmüş, beli azca donqar bir xəstə görsən, ya da ki, başında buxara papaq, əynində kürk, gülümsər və qüssəli gözlər sahibi olan bir kişi görsən, o zaman, dəxi bizi qınama. Vallah, ölülər savab iş tutmaq istəyirlər.*

*Yuxunuz şirin olsun, dirilər!"*[28]

Əlyazma arxetipi müasir ədəbiyyatımızda da əks olunur. Lakin XXI əsr ədəbiyyatımızda əlyazma arxetipi bir sıra fərqli xüsusiyyətləri ilə yadda qalır. Belə ki, Yusif Səmədoğlunun "əlyazma"sı ehtimal olunan bir

---

[28] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. Səh. 188

əsərin varlığını sübut edir və əlyazmanın tapılması bir yazıçının yaradıcılığına dair məlumatın tamamlanmasına xidmət edir. Lakin Kamal Abdullanın və Sabir Rüstəmxanlının "əlyazma"sı bir toplumun, bir etnosun taleyini əks etdirir, ədəbi kultu və kanonik mətni dəyişir.

**Qadın arxetipinin transformasiyası – hal anası.** Yusif Səmədoğlunun "Deyilənlər gəldi başa" romanında isə digər bir arxetipik obraz – qadın arxetipinin transformasiyası olan hal anası əks olunmuşdur. Azərbaycan mifologiyasında su ilə bağlı varlıqlardan biri də hal anasıdır. Bu mifoloji obraz başqa türk xalqlarında Albası, Almastı, Jalbastı və b. variantlarda tanınır. Tədqiqatçıların fikrincə, Azərbaycanda onun ilk izləri hələ Elam dövründən ( b. e. ə. IV – III minilliklər) bəllidir. Sonralar İber – Qafqaz və Hind – Avropa dilli bir sıra qonşu xalqların da mifologiyasına da keçmişdir. Məlumdur ki, xalq inanclarında halın kişi xeylağından qorxduğu bildirilir. Məhz buna görə də çox zaman zahı qadının başına kişi papağı qoyurlar. Hal niyə kişi xeylağından qorxur? Bunu Hənəfi Zeynallının halın təsvirinə əsasən gəldiyi qənaət izah edir. Məlumdur ki,

adətən halı belə təsvir edirlər: saçı sarı, dağınıq, başı iri, burnu iri, boyu uca, döşləri böyük olduğundan çiyninə atır, paltarı ağ olur, boynundan iri muncuq asır. H. Zeynallının fikrincə, halın bu cür təsviri onun amazonkalarla bağlı olduğunu göstərir.[29] M. Seyidov isə "Azərbaycan xalqının soykökünü düşünərkən" əsərində Hal (Al) arvadını türkdilli qitanların mifologiyasındakı Qırmızı qadınla müqayisə edərək onların eyniköklü obraz olub günəşlə bağlılığı qənaətinə gəlmişdir. Y. Səmədoğlunun əsərində hal arvadının bütün spesifik keyfiyyətləri qabarıq verilmiş, hətta, onun insanları idarə etdiyi, haqq divanına çəkdiyi göstərilmişdir. *"Hal arvadının cəzası belədir: kimi ki, dünyadan vaxtsız aparıb qara torpaq altındakı Sarı hamama gətirir, qiyamət gününə qədər, göydəki günəşin son qızmar zərrəsinin soyuyub buza dönəcəyi ana qədər, bütün kainatın işığı çözəlib sönənə qədər o bəndənin yaddaşını, xatirələrini yoxa çıxardıb xırda-xırda gümüş mücrülərə yığır, gecə-gündüz torpaq altından qalxan atəşlərin ətrafında saxlayır."*[30]

[29] Azərbaycan xalq nağılları. 5 cilddə, Bakı: Şərq – Qərb. 2005. Səh. 18.

[30] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. 320 s., səh. 58

Dünya mifologiyasında su ölümün, axirətin simvolu kimi çıxış edir. Mifologiyada su həm də o biri dünyaya açılan qapıdır. Ölünün dəfndən öncə qüsullanması da bu mifik-arxetipik inamla bağlıdır. Yusif Səmədoğlunun yaratdığı Hal anası obrazı da ölüləri məhz su ilə bağlı məkanda – hamamda da sorğu-suala çəkir.

**Ölüm arxetipik məqam kimi.** Yusif Səmədoğlunun romanlarında ölüm arxetipik məqam statusunda çıxış edir. Yusif Səmədoğlunun "Qətl günü" əsərində də ruhlar o biri dünyaya gələnləri qurumuş çay vadisində qarşılayırlar:

*"Zülfüqar kişi soruşdu:*

*– Ayə, bu Kürün suyu hanı?*

*Sarıca oğlu Məhəmməd güldü:*

*– Nə su, evin yıxılmasın, sumu qalar indiyə?.. Tez ol, yubanma, mənzilimiz uzaqdır...*

*Qan çanağında beşatılanı Sarıca oğlu Məhəmmədin qarnına boşaltmışdı: indi həmin yerdə dəyirmi deşik vardı və bu deşiyin içi torpaqla dolu idi. Zülfüqar kişi köksünü ötürüb yazıq-yazıq soruşdu:*

*– Ağrıdırmı?*

*– Ayə, indiyə ağrımı qalar?"*[31]

Mifoloji inanclara görə çay, dəniz "o biri dünyanın", "başqa aləmin" qapısı, "hərəkət edən zamanın" simvolu hesab edilir. "Qətl günü"nün qəhrəmanları da məhz zamanın öz hökmünü itirdiyi məkanda – qurumuş çay vadisində görüşürlər. Fikrimizcə, Yusif Səmədoğlu ölüm arxetipini iki hissəli təsvir edən ilk nasirlərdəndir. Ədəbiyyatımızda ilk dəfə ölüm, axirət məqamının iki etapı öz əksini məhz Yusif Səmədoğlunun iki romanında – "Qətl günü" və "Deyilənlər gəldi başa" romanlarında tapmışdır. "Deyilənlər gəldi başa" romanındakı hamam qurumuş çay vadisindən öncəki məqamdır. Çünki hələ təmizlənməyə imkan var, hələ Hal anasının divanında "paklanmaq" ehtimalı var. "Qətl günü"ndəki qurumuş çay vadisi isə artıq ölümlə görüşün, axirətin son məqamıdır. Məti Osmanoğlu Yusif Səmədoğluna həsr etdiyi məqalədə maraqlı bir faktdan bəhs edir: *"Yadımda qalan maraqlı hadisələrdən biri də "Qətl günü" romanı əsasında film üçün yazılmış ssenari ilə bağlıdır. Bir gün Yusif müəllim məndən xahiş elədi ki, kitabxanaya gedim, Abbas Tufarqanlının "Du-*

[31] Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. 320 s.səh. 62.

*man, gəl get bu dağlardan..." gəraylısının mətnini kitabda olduğu kimi dəqiq köçürüb ona çatdırım. Şeiri əzbər bildiyimi dedim və elə oradaca bir kağıza köçürüb Yusif müəllimə verdim. Bu şeiri Səbri Şimşəkoğlu adlı bir türk aşığının çox fərqli oxuduğunu dedi və onun səsindən, eləcə də bu şeirin mətnindən "Qətl günü" əsasında işlədiyi ssenaridə istifadə edəcəyini söylədi. Bu söhbətdən bir az keçmiş kinostudiyanın direktoru, şair Eyvaz Borçalı Yusif müəllimi tələsdirməyə başladı. Məlum oldu ki, filmin çəkilişi plana salınsa da, ssenari hələ hazır deyil... Aradan az keçmiş Yusif müəllim mənə bir qovluq verib xahiş elədi ki, evə gedəndə (mən kinostudiyanın yaxınlığında, 1-ci mikrorayonun yuxarı tərəfində olurdum) yolüstü kinostudiyaya çatdırım. Qovluğu həmin axşam özümdə saxladım, gecə oxuyub səhər tezdən studiyaya apardım. Ssenarinin adı Abbas Tufarqanlının şeirindən götürülmüşdü: "Deyilənlər gəldi başa..." (Sonradan Yusif müəllim yarımçıq qalmış son romanını belə adlandırdı.) Kino estetikasının tələbləri baxımından fikir söyləmək çətin gəlir, ancaq mətn son dərəcə maraqlı idi. "Qətl günü" romanından film üçün şair və hökmdar xətti əsas leytmotiv kimi götürülmüşdü. Şair obrazı daha çox Səməd*

*Vurğunun şəxsiyyəti və tərcümeyi-halı ilə səsləşirdi."*[32] Bu məqam da sübut edir ki, Yusif Səmədoğlunun qeyd edilən iki romanı bir arxetipik motiv – ölüm motivi üzərində köklənən, bir-biri ilə sıx əlaqəyə malik əsərlər kimi yazıçının spesifik bədii layihəsi hesab edilə bilər.

Yusif Səmədoğlunun yaradıcılığı kəmiyyətcə az olsa da, keyfiyyətcə çox dəyərlidir. Bu yaradıcılığı nağıllarımızda tez-tez işlənən "vəzndə yüngül, qiymətdə ağır" kəlamı ilə səciyyələndirmək yerinə düşərdi. Yusif Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus üsluba malik yazar, orijinal əsərlər və obrazlar yaradıcısıdır.

[32] Osmanoğlu M. Biz gəldi gedərik, sən yaşa Yusif Səmədoğlu // Ədəbiyyat qəzeti, 2015, 5 sentyabr, səh. 7 ; Ədəbiyyat qəzeti, 2015, 12 sentyabr, səh. 26

# YUSİF SƏMƏDOĞLUNUN YARADICILIĞI ƏDƏBİ TƏNQİDDƏ

Ədəbi tənqidin nəzər-diqqətində olmaq istənilən ədib üçün həm arzuedilən, həm də çətin bir məqamdır. Əlbəttə, mətni yaradan müəllifin ilk məqsədi məhz öz oxucusunu taparaq mətninə həyat vəsiqəsi qazanmaqdır. Lakin əsas və daha çətin məqam ədəbi proses və ədəbi tənqid tərəfindən qəbul edilməkdir. Oxucunun bədii əsərə verdiyi qiymət onun dünyagörüşündən, təhsil səviyyəsindən və fərdi zövqündən asılıdır. Bu məqamları hazırlıqlı yazıçı hesablaya, kütləvi yaxud elitar zövqə uyğun bədii mətnlər yarada və oxucu səviyyəsində istədiyi statusu əldə edə bilər. Lakin daha çətin olan etap ədəbi tənqid tərəfindən müəllifin imzasının qəbul edilməsidir. Burada yazıçıdan və mətndən asılı olmayan bir sıra məqamlar önə çıxır, imzanın, əsərin gələcək taleyini müəyyən edir. *"Ədəbi tənqid – ədəbi prosesin təzyiqini ölçəməyə imkan verən özünəməxsus barometrdir. Bunu yazıçı da, oxucu da, naşir də dərk edir."*[33]

Yusif Səmədoğlunun ədəbi yaradıcılığı ədəbi prosesə ilk addımlarını atdığı andan ədəbi tənqidin diqqətində olmuşdur. İlk mətnlərindən özünəməx-

[33] Черняк Мария. Барометр литературного процесса или критики о критике// Библиотечное дьло. №16 [298] 2017, стр. 25.

sus üslubu ilə diqqəti cəlb edən nasirin onunla birgə ədəbi prosesə gələn imzalardan fərqli və daha məsuliyyətli bir vəzifəsi də var idi. Çünki Yusif Vəkilov ədəbiyyata Səmədoğlu – böyük Səməd Vurğunun övladı, varisi olaraq gəlirdi. O, öz yaradıcılığı ilə həm Səməd Vurğun imzasının kölgəsində qalmamalı, həm də böyük Səməd Vurğunun adına layiq olduğunu sübut etməli idi. Səməd Vurğunun hər iki övladı – həm Vaqif Səmədoğlu, həm də Yusif Səmədoğlu bu missiyanı yüksək səviyyədə tamalaya bildilər.

Azərbaycan ədəbiyyatşünaslığında Yusif Səmədoğlunun yaradıcılığı həm monoqrafik, həm də ədəbi-tənqidi məqalə səviyyəsində tədqiq olunub. Yusif Səmədoğlunun yaradıcılığı haqqında qələmə alınmış sanballı elmi tədqiqatlar sırasında akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular" məqaləsi önəmli yer tutur. Akademik İsa Həbibbəyli Səməd Vurğun yaradıcılığı ilə  bağlı mühüm araşdırmalara imza atmış bir alim kimi Səmədoğlular fenomeninin mahiyyətini tam şəkildə çözələmək iqtidarında olduğunu bu məqalə ilə açıq şəkildə ortaya qoyur.

Akademik Səmədoğluların Vurğunun kölgəsində qalmadığını qeyd edərəkyazır: *"Səməd Vurğuna hamıdan yaxın olmalarına baxmayaraq, onlar bu böyük və ilamlı sənətin ritmini və ahəngini deyil, dərin qatlardakı ideya-fəlsəfi axarını, ictimai ruhunu əsas kimi qəbul edərək, tamamilə orijinal yolla getməklə yeni tipli sənətkarlara çevrilmişlər"*[34]

Yusif Səmədoğlunun "Qətl günü" romanı ilə bağlı Akademik İsa Həbibbəylinin irəli sürdüyü fikirlər də orijinallığı və fərqli yanaşma aspekti ilə yadda qalır: *"Fikrimizcə, Xalq yazıçısı Yusif Səmədoğlunun "Qətl günü" romanında Azərbaycan xalqının Molla Pənah Vaqifdən Səməd Vurğunadək mürəkkəb və kəşməkeşli taleyi ədəbi-tarixi baxımdan məharətlə ümumiləşdirilmişdir. Hətta bu baxımdan yanaşmaqla "Qətl günü" romanında Molla Pənah Vaqifin və Səməd Vurğunun prototipi ola biləcək obrazlar da müəyyən etmək mümkündür. Romanın uğurlu çıxmasının, ədəbiyyatımızda ədəbi hadisə səviyyəsində qəbul edilməsinin əsas səbəblərindən biri də əsərdə əks etdirilən mətləblərin, bəzi analoji məqamların, Yusif Səmədoğlu tərəfindən atası*

[34] Həbibbəyli İ. Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular//Ədəbiyyat qəzeti, 2008, 1 fevral, səh. 3.

*Səməd Vurğunun tərcümeyi halında və yaradıcılıq taleyində dərindən və əsaslı şəkildə görünən və görünməyən tərəflərilə müşahidə edilməsi ilə əlaqədardır".*[35]

Akademik Nizami Cəfərov 2015-ci ildə "Elm və Təhsil" nəşriyyatında çap olunan "Səməd Vurğun... və Səmədoğlular" kitabında həm dahi Səməd Vurğunun, həm də Səməd Vurğun ocağının, Səməd Vurğun kultunun işığından doğulan iki böyük sənətkarın – Vaqif Səmədoğlu ilə Yusif Səmədoğlunun yaradıcılığını akademik prizmadan açaraq qənaətlərini geniş oxucu kütləsi ilə bölüşmüşdür. Nizami Cəfərov "Yusif... və Səmədoğlu" məqaləsində yazıçının yaradıcılığının lakonikliyini bu şəkildə əsaslandırır: *"Yusif Səmədoğlu, nə qədər az yazsa da, heç şübhəsiz, ən böyük Azərbaycan yazıçılarından biri idi. Və yazıçı kimi böyüklüyünün bir mühüm göstəricisi də elə az yazması idi.Fikrimcə, Yusif Səmədoğlu ona görə az yazırdı ki, ədəbiyyata, söz sənətinə (peşəsinə!) son dərəcədə ciddi, son dərəcədə məsuliyyətlə yanaşırdı. Heç zaman unutmurdu ki, dahi Səməd Vurğunun oğludur… Və onun böyük intellekti, yüksək zövqü həmişə, hər şeydən yazmağa, süni popul-*

[35] Həbibbəyli İ. Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular //Ədəbiyyat qəzeti, 2008, 1 fevral, səh. 3.

*yarlığa imkan vermirdi. Nəhayət, bir məsələ də vardı… Yusif Səmədoğlu sözün geniş (və böyük) mənasında həyat adamı idi. O, bu dünyaya yalnız, yazı yazmağa (yazıçı olmağa!) gəlməmişdi. Gəlmişdi ki, həyatın insan görə biləcəyi bütün gözəlliklərini görsün… Özündən sonra təbii, canlı bir İnsan obrazı (əsər!) qoyub getsin. Və istədiyi kimi də elədi…"*[36] Nizami Cəfərov məqalədə Yusif Səmədoğlunun dolğun obrazını yaratmağa nail olmuşdur. Yazıçı ilə ilk görüşdəki tələbə təəssüratı, sonrakı alim, həmkar müşahidələri, əsərlərinin alt qatına enməsi sayəsində akademik Yusif Səmədoğlunun genetik kodunun onun  yaradıcılığında roluna dair maraqlı, qeyri-trivial qənaətlərə gəlir. Nizami Cəfərov "Qətl günü" romanı ilə bağlı az qala danılmaz fakt kimi qəbul olunan və tədqiqatçılar tərəfindən təkrarlanan bir fikri – Sədi Əfəndi obrazının prototipinin kimliyini məsələsini tam fərqli, gözlənilməz şəkildə həll edir: "*"Qətl günü" romanını da təsadüfən yazmadı… Doğrudur, normativ (və kanonik) ədəbi-ictimai təfəkkür bu romanın baş qəhrəmanı kimi dahi Hüseyn Cavidi gördü, ancaq Sədi əfəndi yalnız Cavid deyildi. Və bəlkə də, daha*

[36] Nizami Cəfərov. Səməd Vurğun... və Səmədoğlular.Bakı, "Elm və təhsil", 2015, səh. 74.

*çox Səməd Vurğun idi… Yusif Səmədoğlu "Qətl günü"n-də təsvir (və təhlil) etdiyi hadisələri ilk növbədə atasının tərcümeyi-halında görməyə, yaşamaya, analiz etməyə bilməzdi."*[37]

2005-ci ildə "Azərbaycan" jurnalı Yusif Səmədoğlu-nun 70 illik yubileyi münasibətilə ədibin yaradıcılığına xüsusi diqqət yetirmişdi. Həmin ilin son, 12-ci nöm-rəsində ədəbiyyatşünaslardan Vaqif Yusiflinin "Nəsrin ustası", Rəhilə Qeybullayevanın "Yusif Səmədoğlunun yaradıcılığında ölüm", Tahirə Məmmədin "İki yol ay-rıcında yazılmış roman" elmi-publisistik, İntiqam Qa-sımzadənin "Allahın nur payı", Südabə Ağabalayevanın "Yusifdən yazmaq çətindir" publisistik məqalələri işıq üzü görmüşdü. Adlarından da göründüyü kimi həmin məqalələr ədibin yaradıcılığının müxtəlif aspektlərinə işıq salaraq Yusif Səmədoğlu imzasının tədqiqi ilə bağ-lı yeni üfüqlərin açılmasına səbəb olmuşlar.

Prof. Qorxmaz Quliyev "Yanıram a dağlar..." adlı məqaləsində Yusif Səmədoğlu yaradıcılığının inkişaf dinamikasına, strukturuna nəzər salaraq yazır: *"Yu-sif Səmədoğlunun bütün yaradıcılığı dialektik vəhdət*

[37] Nizami Cəfərov. Səməd Vurğun... və Səmədoğlular.Bakı, "Elm və təhsil", 2015, səh.78.

*təşkil edir: onun müxtəlif illərdə yazdıqları hekayələr bir tərəfdən "Qətl günü" romanına məqsədyönlü hazırlıqdır, digər tərəfdən gerçəkliyin müxtəlif aspektlərini özümlü şəkildə işıqlandıran tam müstəqil ədəbi-bədii nümunələrdir. "Qətl günü" öz növbəsində bir tərəfdən hekayələrin ideya məzmununu, deyim tərzini ehtiva edir, digər tərəfdən nəinki sənətkarın yaradıcılığı üçün, bütövlükdə Azərbaycan ədəbiyyatı üçün tamamilə yeni bədii-estetik hadisədir. Sənətkarın yarımçıq qalmış "Deyilənlər gəldi başa" əsəri sübuta yetirir ki, o elə bu prinsip əsasında yaradıcılıq yolunda addımlamağı nəzərdə tuturmuş: bu başa çatmamış, lakin son dərəcə möhtəşəm proyekt bütün əvvəlki ədəbi-bədii nümunələri – hekayələri və "Qətl günü" romanını ehtiva etməklə yanaşı həm də gerçəkliyin tamamilə yeni görmə bucağından təcəssüm etməli imiş... "*[38]

Yusif Səmədoğlu irsinin araşdırılmasında mühüm xidmətləri olan ədəbiyyatşünaslardan biri də müasir ədəbi tənqidimizin ağsaqqalı olan filologiya elmləri doktoru Vaqif Yusiflidir. Vaqif Yusifli "Azərbaycan romanında yeni səhifə", "Böyük Azərbaycan yazıçısı. Yu-

[38] Quliyev Q. Yanıram a dağlar...//Azərbaycan juranlı, 2010, N12, səh. 9-12.

sif Səmədoğlu-85", "Doğumun və ölümün mübarək Yusif Səmədoğlu", "Unudulmayan Yusif Səmədoğlu", "Yusif Səmədoğlu – böyük nəsr ustası kimi" məqalələrində Yusif Səmədoğlunun ədəbiyyatımızdakı yerinə dair orijinal fikirlərini elmi cameəyə təqdim etmişdir. Vaqif Yusifli "Yusif Səmədoğlu – böyük nəsr ustası kimi" məqaləsində yazır: *"Yusif Səmədoğlu Xarakter ustası idi. İstənilən bir nəsr əsərinə ya da ssenariləri əsasında çəkilən filmlərə baxın. Şəksiz ki, istər nəsr əsəri olsun, istərsə də bədii film – bu əsərlərdə Yusif Səmədoğlu istedadlı bir sənətkar olduğunu sübut edir – bütün yazıçı mədəniyyəti, xüsusilə təsvir üsulunun özünəməxsusluğu və rəngarəngliyi ilə... Bu mənada "Qətl günü" romanını zəngin xarakterlər qalareyasına bənzətmək olar. Bunları çeşidləmək də olar: insan obrazları, təbiət obrazları, rəmzi-simvolik obrazlar və bir də sırf mifik obrazlar. Romanı oxuyanda isə sanki fərqinə varmırsan – təbiət obrazlarını da insan obrazları kimi qəbul edirsən. Yəni obrazların canlımı, cansızmı, realmı, irrealmı olduğu bir elə əhəmiyyət kəsb eləmir."*[39]

[39] Yusifli V. Yusif Səmədoğlu – böyük nəsr ustası kimi \\525-ci qəzet.- 2010.- 11 dekabr.- S.29-30.

Ədəbiyyatşünas Məti Osmanoğlu "Biz gəldi gedərik, sən yaşa Yusif Səmədoğlu" məqaləsində Səməd Vurğunun oğlu Yusifin "Yusif Səmədoğlu" imzasına – yeni nəsrin yaradıcısına, yeni nasir kultuna çevrilmə yolunu izləyərək yazır: *"Azərbaycan ictimai təfəkkürünün öz kimliyinə, öz kökünə, öz yaxın keçmişinə baxışında "Dəli Kür"ün roman dilində gördüyü işi "Yeddi oğul istərəm" kino dilində yerinə yetirdi.Film tamaşaçının təsəvvüründə həm də Yusif Səmədoğlu obrazını yaratdı. Bu görünməz, müəmmalı və öz fiziki yaşından əsrlərlə böyük obraza marağın güclənməsində Yusif Səmədoğlu imzasının az-az görünməsi də az rol oynamırdı. Vaxt keçdikcə "Astana", "İncə dərəsində yaz çağı" kimi şedevr hekayələrin təqdimatı isə ("Bayatı-Şiraz" həmin dövrdə yazılsa da, çapına icazə verilməmişdi) ictimai yaddaşdakı Yusif Səmədoğlu obrazı ilə bağlı ilk təəssüratı yenidən dirildirdi. Nəyahət, 1984-cü ildə tamamladığı və nəşr etdirdiyi "Qətl günü" romanı "böyük zaman" içində yol gedən Yusif Səmədoğlunun portretini "kadr arxasından" kadra, ön plana çıxartdı. Azərbaycan milli azadlıq hərəkatı başlayanda isə Yusif Səmədoğlu sözün hərfi mə-*

*nasında önə çıxdı, yüz minlərin önündə sözü eşidilən bir lider, ağsaqqal kimi qəbul edildi... "*[40]

Məti Osmanoğlu 2019-cu ildə çap olunan "Ocaq yeri" kitabında da Səməd Vurğun ocağından və bu ocağın yetirmələrindən  söz açmışdır. Kitabın Yusif Səmədoğluna həsr edilmiş bölümündə ədəbiyyatşünas Yusif Səmədoğlu fenomenini yeni ştrixlərlə oxucuya təqdim etməyə nail olmuşdur

Professor Cavanşir Yusiflinin məqalələrində Yusif Səmədoğlu irsi fərqli kontekstdə tədqiqata cəlb olunur. Onun "Bayatı-Şiraz» və metafizik intuisiya", "Qətl günü"nə daha bir baxış: "əyilən müstəvi" reallıq qiyafəsində", "Yusif Səmədoğlunun "Qətl günü" romanında bədii interyer" məqalələri ədibin bədii irsinə qərb ədəbiyyatşünaslığının təcrübəsi işığında elmi baxışı səciyyələndirir: *"Amerikan tədqiqatçısı Henri Ceyms "Roman estetikası" əsərində təhkiyəni «pəncərədən görünən görüntü" ilə müqayisə edirdi. Pəncərədən baxan hər kəs fərqli mənzərəni seyr edir. Fransız strukturalisti J.Jenet üçünsə kimin görməsi və kimin danışması əsasdır. Onu detaldan çox, detalın hansı nöqteyi-nəzərdən*

[40] Osmanoğlu M. Biz gəldi gedərik, sən yaşa Yusif Səmədoğlu // Ədəbiyyat qəzeti, 2015, 5 sentyabr, səh. 7. ; Ədəbiyyat qəzeti, 2015, 12 sentyabr, səh. 26

*təqdim edilməsi maraqlandırırdı. Bu perspektivi tuta bilmək bədii gerçəkliyin bütün elementlərini seçə bilmək, tanıya bilmək imkanı verirdi. "Qətl günü" romanında bu kimi detalların əsərin korpusunda yerləşmə mövqeyi çoxfunksiyalılığa xidmət edir; hər bir pasajda, təsəvvür edin ki, son dərəcə aydın mənzərə cızılır, personajın bütün ziddiyyətli düşüncələrinin düyünü açıla-açılda həmin detalların "büküş yeri" öz sözünü deyir, dumanlılıq, zamanı anlamaq, dərk eləmək baxımından personajın şübhələri qırx arşın quyuya düşmüş kimi olur. Sədi Əfəndinin aid olduğu yaradıcılıq sferasında, mühitdə necə qarşılanması onun ətrafına hasar kimi çəkilən sükutdan da aydındır."*[41]

Ədəbiyyatşünaslığımızda özünəməxsus üslubu ilə seçilən prof. Rüstəm Kamalın Yusif Səmədoğlu irsinə baxışı da orijinaldır: *"Bu nəsrin "mifoloji sütunu" iki dünyanın – ölülər və dirilər dünyasının ünsiyyətindən ibarətdir. "O" dünyanın sakinləri ("ölü də yuxuya girərmi, a kişilər?") daim "bu" dünyanın içindədir. Dirilərin (xəstələrin, şikəstlərin) bir ayağı "ordadır", həmişə "Ölümün mübarək!", "Ölümə qənşər!" deməyə hazırdırlar. Ona görə*

[41] Yusifli C. Yusif Səmədoğlunun «Qətl günü» romanında bədii interyer// Ədəbiyyat qəzeti.- 2017.- 26 avqust.- S.2.; 9 sentyabr, səh. 4-5.

*də onun qəhrəmanları (əgər belə demək mümkünsə), iki dünyanın arasındadırlar. Tatar Temir, Səməndər, canavar iki dünya arasında vasitəçilik statusuna malik marginal, sosial varlıqlardır.*

*Yusif Səmədoğlu üçün iki cür baxış tipi səciyyəvidir: uzağı və yaxını, yer üstündə və göy üzündə olanları eyni vaxtda görə bilir."*[42]

Yusif Səmədoğlunun yaradıcılığı ilə bağlı müdafiə edilən dissertasiyalar ədibin irsinin bu elmi kontekstdə də aktual olduğunu sübut edir. Lətafət Əliyevanın 2010-cu ildə müdafiə etdiyi "Yusif Səmədoğlunun yaradıcılığı" fəlsəfə doktorluğu dissertasiyası yazıçının yaradıcılığına ümumi baxışı özündə ehtiva edir. Leyla Əliyevanın 2018-ci ildə müdafiə etdiyi "Yusif Səmədoğlunun nəsrində yaddaşın bədii-estetik funksiyası" mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasında isə Yusif Səmədoğlu yaradıcılığına fərqli aspektdən yanaşılmış, yazıçının bədii irsində yaddaşla bağlı elementlərin təzahürünün xarakterik xüsusiyyətlərdən biri olduğunu qeyd edilmişdir.

[42] Rüstəm Kamal. Yusif Səmədoğlu : Qeyb aləminin səsini eşidən adam//Azərbaycan jurnalı, 2010, N 12, səh. 6-12.

Vəfatından sonra çap olunan, tamamlaya bilmədiyi "Deyilənlər gəldi başa.." romanı ilə ölümündən sonra da oxucusu ilə görüşməyə, onu yeni əsəri ilə heyrətləndirməyə nail olan Yusif Səmədoğlunun ədəbi yaradıcılığı dünən olduğu kimi bu gün də ədəbi tənqidin və ədəbiyyatşünaslığımızın diqqətindədir.

# NƏTİCƏ

Azərbaycan nəsrinin inkişafı kontekstində Yusif Səmədoğlunun yaradıcılığı mühüm mövqeyə malikdir. Yazıçının yaradıcılığının əsas hissəsinin təsadüf etdiyi XX əsr Azərbaycan ədəbiyyatı üçün bütün aspektlərdə həlledici, zəngin bir etap kimi ədəbiyyat tariximizə daxil olmuşdur. Həmin dövrün ədəbi prosesində mühüm imzalardan biri olan Yusif Səmədoğlunun əsərləri fərqli aurası, kompozisiyası və üslubu ilə seçilirdi.

Yusif Səmədoğlunun nəsri süjet xəttinin, bədii konfliktin transformasiyalarının, fərqli poetik fiqurların, priyomların, arxetiplərin, xronotopun tədqiqi baxımından zəngin bədii mənbədir. Dövrünün ictimai-siyasi həyatında fəal iştirak edən ədibin əsərlərindən millilik, azərbaycançılıq qırmızı xətt kimi keçir. Bu əsərlərin yazılmasından keçən dövrdə mühüm ədəbi-mədəni, ictimai-siyasi dəyişikliklər baş vermişdir. Lakin Yusif Səmədoğlunun qəhrəmanları milli kolorit baxı-

mıdan zəngin olduqları üçün bu gün də müasir səslənir, gələcəyə doğru yol gedir.

Yusif Səmədoğlu müstəqillik dövrü Azərbaycan ədəbiyyatının formalaşmasına mühüm təsir göstərən yazıçılardan biridir. Onun "Qətl günü" və yarımçıq qalan "Deyilənlər gəldi başa" romanları müstəqillik dövrü Azərbaycan ədəbiyyatının qidalandığı əsas mənbələrdən biri olmuşdur.

Yusif Səmədoğlunun yaradıcılığı Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatı kontekstində tədqiqinə geniş üfüqlər açır. Millilikdən, azərbaycançılıq ideologiyasından yoğrulmuş bu əsərlərin xarici ölkələrdə təbliği ədəbiyyatımızın, mənəvi sərvətimizin dünya kontekstində tanıdılmasında mühüm addımlardan biri ola bilər.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. 30 tarixi səfər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəsmi və dövlət səfərləri (1993-2003). Bakı, "Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, 2013, 272 səh.

2. Abbaslı T. Bir imza ki... / Mədəniyyət.- 2015.- 25 dekabr.- səh. 9.

3. Ağabalayeva S. Yusifdən yazmaq çətindi! // 525-ci qəzet. -2010 /- 25 dekabr.- səh.20-21.

4. Alışanlı Ş. Sözün yaşamaq haqqı. Bakı, "Sabah", 2022, 460 səh.

5. Azərbaycan xalq nağılları. 5 cilddə, Bakı: Şərq – Qərb. 2005.

6. Babayeva-Vəkilova N. Sonsuz ömrün yolçusu – Yusif Səmədoğlu / Bakı, Qanun, 2018, 343 səh.

7. Bağırlı A. Ağrılı həqiqətlər romanı / Azərbaycan jurnalı, 2014, N3, səh. 180-185.

8. Barat V. Yusifsiz günlərin sonu / 525-ci qəzet.- 2015.- 20 noyabr.- səh.7.

9. Cəfərov N. Səməd Vurğun... və Səmədoğlular. Bakı, Elm və Təhsil, 2015, 107 səh.

10. Əfəndiyev İ. Qırçı və qırmızı çiçək (hekayələr). Bakı, Gənclik, 1981, 189 səh.

11. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 clddə, 2ci cild (dərslik). Bakı, "Apostrov", 2010, 436 səh.

12. Əlişanoğlu T. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı, "Elm", 2006, 312 səh.

13. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı (Nitqlər, məruzələr, çıxışlar). Bakı, Ozan, 1999, 496 səh.

14. Əliyeva L. Görkəmli yazıçı, ictimai xadim (Yusif Səmədoğlu yaradıcılığına baxış) / Respublika.- 2008.- 25 dekabr.- səh.14.

15. Əliyeva L. Yaradıcılıq və yaddaş kontekstində Yusif Səmədoğlu nəsrinin spesifik xüsusiyyətləri / Filologiya və sənətşünaslıq, 2021, N1, səh. 104-112.

16. Əmirli Ə. Ölümə qənşər. Yusif Səmədoğlu – 80 / Azərbaycan jurnalı, 2015, N12, səh. 18-23.

17. Fərid H. Yusif Səmədoğlunun gülüşü / 525-ci qəzet.- 2014.- 8 mart.- səh.22.

18. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019, 452 səh.

19. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular / Ədəbiyyat qəzeti, 2008, 1 fevral, səh. 3.

20. Həbibbəyli İ. Heydər Əliyevin böyük ədəbiyyat siyasəti / Ədəbiyyat qəzeti.- 2023.- 6 may. səh.9.

21. Həsənov M. Çingiz Aytmatov və Yusif Səmədoğlu yaradıcılığında repressiya: reallıqdan bədii təxəyyülə / Azəfrbaycan Milli Elmlər Akademiyasının xəbərləri: Humanitar elmlər seriyası, 2016, N1, səh. 127-132.

22. Odisseya. Bakı: Azərnəşr, 1977. 369 s.

23. Osmanoğlu M. Biz gəldi gedərik, sən yaşa Yusif Səmədoğlu / Ədəbiyyat qəzeti, 2015, 5 sentyabr, səh. 7. ; Ədəbiyyat qəzeti, 2015, 12 sentyabr, səh. 26.

24. Pərvin. Yusif Səmədoğlu - ölümdən sonrakı həyat / 525-ci qəzet.- 2015.-25 dekabr.- səh.7

25. Qaragözova E. Yusif Səmədoğlunun romanlarında arxetipik motivlər / Ədəbiyyat qəzeti.- 2022.- 6 noyabr, səh.23.

26. Qaragözova E. Ali diqqət və rəğbətin dəyişməz ünvanı: Yusif Səmədoğlu / 525-ci qəzet, 21 noyabr 2023, səh. 14.

27. Qaragözova E. Ədəbiyyatımızda etüd-hekayə janrı: Yusif Səmədoğlunun "Xəzri"si / Olaylar, 17-23 oktyabr 2023, səh. 18.

28. Qaragözova E. Yusif Səmədoğlu və Azərbaycan ədəbiyyatşünaslığı: kontekst və diskurs. / "Azərbaycan" jurnalı, N12, 2023, səh.164-168.

29. Qasımzadə İ. Allahın nur payı / Azərbaycan jurnalı, N12, 2005

30. Qeybullayeva R. Yusif Səmədoğlunun yaradıcılığında ölüm / Azərbaycan jurnalı, N12, 2005

31. Quliyev Q. Yanıram a dağlar... / Azərbaycan juranlı, 2010, N12, səh. 9-12.

32. Quliyev V. "Yuxunuz şirin olsun dirilər..." / Azərbaycan jurnalı, 2010, N12, səh. 3-5.

33. Məmməd T. İki yol ayrıcında yazılmış roman / Azərbaycan jurnalı, N12, 2005

34. Mustafa Vəkiloğlu. Məqalələr, Məktublar. I cild. (tərtibçi Dilqəm Əhməd, elmi redaktor Ədalət Tahirzadə, ideya müəllifi və məsləhətçi Səməd Vəkilov) Bakı, Çapar, 2023, 490 səh.

35. Rəhimova Ü. Midas effekti və Yusif Səmədoğlunun "Bayatı -Şiraz" hekayəsi / Azərbaycan jurnalı, 2017, N5, səh. 199-204.

36. Rüstəm K. Pəncərə – fantaziya / Ədəbiyyat qəzeti.- 2022.- 15 yanvar.- S.14.

37. Rüstəm K. Yusif Səmədoğlu : Qeyb aləminin səsini eşidən adam / Azərbaycan jurnalı, 2010, N 12, səh. 6-12.

38. Rüstəmxanlı S. Nadir və gözəl insan / "Oğuz eli", 1998, sentyabr, səh. 4.

39. Səmədoğlu V. "Deməyəcəyim sözlər…" Vaqif Səmədoğlu qardaşı Yusif Səmədoğlu haqqında / El: jurnal, N71, 2009, səh. 54-62

40. Səmədoğlu Y. Deyilənlər gəldi başa (hekayələr və romanlar). Bakı, Avrasiya press 2012, 436 səh.

41. Səmədoğlu Y. Seçilmiş əsərləri. Bakı : Şərq-Qərb, 2005. 320 səh.

42. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı,1989, 496 səh.

43. Seyran S. Qaçhaqaç: Allahın mənə verdiyi paydı Yusif Səmədoğlu / Azərbaycan juranlı, 2012, N 12, səh. 13-58

44. Yusifli C. "Bayatı-Şiraz" və metafizik intuisiya / Ədəbiyyat qəzeti.- 2020.- 28 noyabr, səh 21.

45. Yusifli C. "Qətl günü"nə daha bir baxış: "əyilən müstəvi" reallıq qiyafəsində / 525-ci qəzet.- 2016.- 12 noyabr, səh. 14; 525-ci qəzet.- 2016.- 15 noyabr, səh. 6.

46. Yusifli C. Yusif Səmədoğlunun "Qətl günü" romanında bədii interyer / Ədəbiyyat qəzeti.- 2017.- 26 avqust, səh. 2.; 9 sentyabr, səh. 4-5.

47. Yusifli V. Azərbaycan romanında yeni səhifə / Kaspi.-2013.-2-4 noyabr, səh. 17.

48. Yusifli V. Böyük Azərbaycan yazıçısı. Yusif Səmədoğlu -85 / Ədəbiyyat qəzeti 2020.- 30 dekabr, səh. 18-19.

49. Yusifli V. Doğumun və ölümün mübarək Yusif Səmədoğlu. / Kaspi, 2015, 24-26 oktyabr, səh. 11; Kaspi, 2015, 31 oktyabr- 2 noyabr, səh. 11.

50. Yusifli V. Unudulmayan Yusif Səmədoğlu / Ədəbiyyat qəzeti.- 2010.- 30 dekabr, səh. 3.

51. Yusifli V. Yusif Səmədoğlu – böyük nəsr ustası kimi / 525-ci qəzet.- 2010.- 11 dekabr, səh. 29-30.

52. Yusifli V. Aysberqin görünən üzü / "Azərbaycan" jurnalı, N12, 2023, səh. 155-158.

53. Yusifli V. "Qətl günü"ndən əvvəl. / Ədəbiyyat qəzeti 23 dekabr 2023, səh. 9

54. Zərrabqızı X. Şərti-metaforik üslubun bədii imkanları (Y.Səmədoğlunun "Qətl günü" və S.Səxavətin "Nekroloq" romanları əsasında) / Müasir ədəbiyyat məsələləri, Bakı, Elm və Təhsil, 2012, səh. 178-190.

55. Zərəngiz Dəmirçi Qayalı.Yusif Səmədoğlu / "Azərbaycan" jurnalı, N12, 2023, səh. 159-163.

56. Гаврилов Д.А, Наговицын А.Е. Боги славян. Язычество. Традиция. – М.: Рефл-Бук, 2002. 464 с.

57. Мусаева Б. Сравнительный аспект изучения фольклорных мотивов в современной тюркоязычной литературе [на материле прозы Чингиза Айтматова и Юсифа Самедоглу]. / Müqayisəli ədəbiyyat. I Beynəlxalq elmi konfrans. 29-31 oktyabr, Bakı, "Kitab aləmi" 2004.

58. Черняк Мария. Барометр литературного процесса или критики о критике / Библиотечное дьло. №16 [298] 2017, стр. 25.

59. Энциклопедический словарь Ф.А. Брокгауза и И.А. Ефрона.http: //dic.academic.ru/dic.nsf/brokgauz_efron/127489 - 146

YUSİF SƏMƏDOĞLU

FOTO YADDAŞDA





*“Foto-fantaziya”*



*Səməd Vurğunun oğlu Yusif!*



*Ali diqqət və rəğbətin ünvanı Yusif Səmədoğlu*



*Ümummilli lider və Səməd Vurğun ocağı*



*Ulu öndər Heydər Əliyev və Azərbaycan ədibləri*



*Azərbaycan Respublikası Milli Məclisinin deputatı Yusif Səmədoğlu*



*Milli Məclisdə*



*Rəsul Rzanın, Səməd Vurğunun və İlyas Əfəndiyevin yadigarları. Estafetin davamı*



*Əziz Nesin və Yusif Səmədoğlu*



*Mehdixan Vəkilov, Yusif Vəkilov, Vaqif Vəkilov*



*Ömür dedikləri...*



*Telli sazın sehrində...*



*Milli azadlıq hərəkatının Yusif Səmədoğlusu*



*Milli azadlıq hərəkatının ziyalı üzü...*



*Səmədoğlular*



*İgid odur atdan düşə atlana...*



*Ana təbiət...*




*Şuşa xatirəsi...*
*Heyif ki, sevimli Şuşanın xatirədən reallığa çevrilməsini görə bilmədi*



*Gələcəyin əhatəsində...*



*Qələmlərin söhbəti...*



*Bu dünyadan gedər olduq, qalanlara salam olsun...*



*Qan qardaşı Vaqif Səmədoğlu və  qələm qardaşı*
*Anar Yusif Səmədoğlunun ziyarətində*



*Deyilən söz yadigardır...*

# "Sənətkarın elmi pasportu" seriyasından çap olunmuş kitablar

1. Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı (kollektiv). Bakı, "Elm və təhsil", 2018, 332 s.
2. Yadigar Əsgərova. Səməd Mənsur. Həyatı və yaradıcılığı. Bakı, 2019. 176 s.
3. Böyük Azərbaycan şairi İmadəddin Nəsimi (kollektiv monoqrafiya). Bakı, "Elm", 2019, 400 s.
4. Firudin Qurbansoy. İmadəddin Nəsimi. Bakı, "Elm", 2019, 136 s.
5. Lətifə Mirzəyeva. Kərim Məşrutəçi Sönməz. Bakı, "Elm və təhsil", 2019, 184 s.
6. Akademik Məmməd Cəfər Cəfərov: şəxsiyyəti və yaradıcılığı (kollektiv monoq-rafiya). Bakı, "Elm və təhsil", 2019, 208 s.
7. Abid Tahirli. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu. Bakı, "Elm və təhsil", 2019, 344 s.
8. Uşaq ədəbiyyatında Xanımana Əlibəyli imzası (kollektiv monoqrafiya). Bakı, "Elm və təhsil", 2020, 148s.

9. Əfzələddin Xaqani. Həyatı və yaradıcılığı (kollektiv monoqrafiya). Bakı, "Elm və təhsil", 2020, 395 s.

10. Mehman Həsənli. Çingiz Aytmatov fenomeni və Azərbaycan. Bakı, "Elm və təhsil", 2020, 406 s.

11. Almaz Ülvi. Əlişir Nəvainin əsri və nəsri (elmi-filoloji və dini-təsəvvüf əsərləri). Bakı, "Elm və təhsil", 2020, 570 s.

12. İslam Qəribli. Məhəmməd Hadi: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2020, 570 s.

13. Elmira Babayeva. Mövlud Süleymanlı: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2020, 204 s.

14. Lətifə Mirzəyeva. Həsən Məcidzadə Savalan: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2020, 200 s.

15. Solmaz Daşdəmirova. Pərvin Etisaminin həyat və yaradıcılığı. Bakı, "ULU" İKF, 2020, 68 s.

16. Teymur Əhmədov. Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı). Bakı, "Nurlar", 2020, 552 s.

17. Əlizadə Əsgərli. Teymur Əhmədov: ədəbiyyat və mətbuat xadimi. Bakı, "Nurlar", 2020, 338 s.

18. Muxtar Auezov: həyatı və yaradıcılığı (kollektiv). Bakı, "Elm və təhsil", 2020, 180 s.

19. İsa Həbibbəyli, İsmixan Osmanlı. Qabdulla Tukay və Azərbaycan. Bakı, "Elm və təhsil", 2021, 536 s.

20. Bədirxan Əhmədli. Rabindranat Taqor: Yeni Hindistanın manifesti. Bakı: "Elm və təhsil", 2021, 372 s.

21. Xalq şairi Sabir Rüstəmxanlı: həyatı və yaradıcılığı (kollektiv). Bakı, "Elm və təhsil", 2021, 484s.

22. Salidə Şərifova. Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri. Bakı, "Qanun", 2021, 164 s.

23. İsa Həbibbəyli. Molla Pənah olan Vaqif. Bakı, "Elm və təhsil", 2021, 160 s.

24. Bəsirə Əzizəli. Məhəmməd İqbal. Eşq və düşüncə şairi. Bakı, "Elm və təhsil", 2021, 228 s.

25. Nizami Gəncəvi: həyatı və yaradıcılığı (kollektiv). Bakı, "Elm", 2021, 982 s.

26. Qəndab Haqverdi. Fədai Şair Qaflantının həyatı və sənəti. Bakı, 2022, 232 s.

27. İsa Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti. Bakı, "Elm və təhsil", 2022, 84 s.

28. Mahmizər Mehdibəyova. Zeynalabdin Marağalının həyatı, mühiti və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 178 s.

29. İslam Qəribli. Xurşidbanu Natəvan: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 280 s.

30. İsa Həbibbəyli. Akademik Məmməd Cəfər Cəfərovun həyatı və bədii yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 152 s.

31. Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 342 s.

32. Əlizadə Əsgərli. Bəxtiyar Vahabzadə (həyatı, mühiti və yaradıcılığı). Bakı, "Elm və təhsil", 2022, 556 s.

33. İsa Həbibbəyli. Hüseyn Cavid (həyatı və sənəti). Bakı, "Elm və təhsil", 2022, 104 s.

34. Gülçin Babayeva. Azərbaycan poeziyasının XV əsr mərhələsi: Cahanşah Həqiqi və Həbibi. Bakı, "Elm", 2022, 160 s.

35. Səadət Vahabova. Ömər Faiq Nemanzadə: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 164 s.

36. Elnarə Qaragözova. Yunus Oğuz: həyatı və yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 118 s.

37. Bahar Bərdəli (Məmmədova). Elçin İsgəndərzadə: həyatı, yaradıcılığı. Bakı, "Vektor" Beynəlxalq Nəşrlər Evi. 2023, 160 s.

38. Kifayət Məmmədova. Qulamrza Səbri Təbrizinin elmi-bədii fəaliyyəti. Bakı, "OPTİ-MİST" MMC çap mərkəzi", 2022, 174 s.

39. Əmir Xosrov Dəhləvi (kollektiv). Bakı, "Elm və təhsil", 2022, 184 s.

40. Baba Babayev. Həsən Seyidbəyli: həyatı və nəsr yaradıcılığı. Bakı, "Elm və təhsil", 2022, 220 s.

41. Abid Tahirli. Məhəmməd Altunbayın həyatı və yaradıcılığı. Bakı, "Xəzər Universiteti Nəşriyyatı", 2023, 136 s.

42. Akademik Kamal Talibzadə–100. Bakı, "Elm və təhsil", 2023, 288 s.

43. Uşaq ədəbiyyatında Tofiq Mahmud imzası (Kollektiv). Bakı, "Elm və təhsil", 2023, 170 s.

44. Şahbaz Şamıoğlu (Musayev). Əhməd Ağaoğlu: həyatı, mühiti, nəsri və epistolyar irsi. Bakı, "Elm və təhsil", 2023, 172 s.

45. Vaqif Yusifli. Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün. Bakı, "Elm və təhsil", 2023, 262 s.

46. Safurə Quliyeva. Qasım Qasımzadənin yaradıcılıq yolu. Bakı, "Elm", 2023, 236 s.

47. Lütviyyə Əsgərzadə. Şeyx Məhəmməd Rasizadə. Bakı, 2024.

48. Elnarə Qaragözova. Yusif Səmədoğlunun həyatı və yaradıcılığı. Bakı, Xan, 2024.

49. Lətifə Mirzəyeva. Mərziyə Əhmədi. Üskui dalğa: həyatı və yaradıcılığı. Bakı, 2024.

50. Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. Füzuli kitabxanası–4. Bakı, "Elm", 2024, 360 s.



**Qaragözova Elnarə Elxan qızı**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsində **aparıcı elmi işçi** vəzifəsində çalışır.

**Doğum tarixi və yeri:** 09.01.1985, Bakı şəhəri

**Təhsil:** Bakı Slavyan Universiteti

**Elmi dərəcəsi:** filologiya üzrə fəlsəfə doktoru

**Elmi adı:** dosent

**Araşdırmalarının əsas mövzusu:** Azərbaycan ədəbiyyatı, mifologiya, ədəbiyyat nəzəriyyəsi, arxetiplər nəzəriyyəsi, ədəbiyyat və təhtəlşüur, ədəbi cərəyanlar, postmodernizm, tarixi romanlar, poetika.

**Fəlsəfə doktorluğu dissertasiyasının mövzusu:** XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları. 5716.01 – Azərbaycan ədəbiyyatı ; 5715.01- Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

**Doktorluq dissertasiyasının mövzusu:** Azərbaycan postmodernist ədəbiyyatının poetikası. 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

**Çap olunmuş elmi nəşrlərin ümumi sayı:** 68

**Xaricdə çap olunmuş elmi nəşrlərin sayı:** 16

**Elnara Qaragözovanın məqalələri WEB of SCIENCE (Thomson & Reuters), COPERNİCUS, ERİH PLUS, РИНЦ, SCOPUS indeksli məcmuələrdə dərc olunub.**

**Kitabları:**

1. XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları. (monoqrafiya). Bakı, Mütərcim, 2018 141 səh.

2. Məqalələr. (məqalələr toplusu) Bakı, Xan, 2020, 118 səh.

3. Postmodernizm. (məqalələr toplusu). Bakı, Xan, 2021, 77 səh.

4. Yunus Oğuz həyatı və yaradıcılığı. (monoqrafiya). Bakı, Elm və təhsil, 118 səh.

**Pedaqoji fəaliyyət:**

2010-2011 Bakı SlavyanUniversiteti müəllim-stajor

**Digər fəaliyyət:**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Filologiya elmləri üzrə ekspert şurasının üzvü (2019)

Beynəlxalq Müqayisəli Ədəbiyyat Assosiasiyasının (AILC-ICLA) Azərbaycan Müqayisəli Ədəbiyyat bölməsinin üzvü

**Mükafatları:**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu - "İlin gənc alimi 2016"

# QEYDLƏR

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

ELNARƏ QARAGÖZOVA

# YUSİF SƏMƏDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI

Sənətkarın elmi pasportu – 48

Bakı 2024

Çapa imzalanıb:  14.02.2024
Formatı: 1/8 Ofset çapı
Həcmi: 16.5
Sifariş № 1311

XAN NƏŞRİYYATI

Tel: (+99477) 330 01 34
www.xannesrleri.az